DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 12 (341) / DEKABR 2019-CU İL

# DÜNYA AZƏRBAYCANLILARINA



Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlk dəfə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda "Nəsimi İli"nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. "Nəsimi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi olmuşdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram.

Bu yolda hamınıza uğurlar, cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 25 dekabr 2019-cu il.*

**"PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİ: MƏDƏNİYYƏTLƏRARASI VƏ DİNLƏRARASI HARMONİYA"**



Səh. 3

**"AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"**



Səh. 6

**"NƏSİMİ ƏSƏRLƏRİNDƏ QURANA ƏN ÇOX MÜRACİƏT EDƏN ŞAİRLƏRDƏN OLUB, ONU NECƏ DİNSİZ SAYMAQ OLAR?"**



Səh. 8-9

**ƏHMƏD BƏY AĞAOĞLUNUN GÖZÜ İLƏ: İSLAM DÜNYASINDA QADINA MÜNASİBƏT**



Səh. 10

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA ŞAMAXIDA ŞAHXƏNDAN TÜRBƏSİNİN ƏTRAFINDA APARILAN ABADLIQ İŞLƏRİ İLƏ TANIŞ OLUBLAR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 6-da Şamaxı rayonunda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlətimizin başçısına və birinci xanıma qəbiristanlıqda və türbədə aparılan abadlıq, bərpa və təmir işləri barədə məlumat verib. İcra başçısı bildirib ki, bura Nəsiminin qardaşı Şahi Xəndanın xatirəsinə Şahxəndan qəbiristanlığı adlanır. Onun qəbri XIV əsrə aiddir və bu qəbiristanlıq o dövrdən mövcuddur.

T.Məmmədov söyləyib ki, milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə xüsusi önəm verən, ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, Azərbaycan mədəniyyətinin xaricdə tanıdılması sahəsində böyük addımlar atan Heydər Əliyev Fondu tərəfindən "Nəsimi ili" çərçivəsində qəbiristanlıqdakı türbənin ətrafında geniş abadlaşdırma işləri aparılıb. Torpağın altında qalan türbənin ətrafı qazılaraq torpaq başqa əraziyə daşınıb, abidədə olduğu kimi səkkizguşəli döşəmə salınıb, türbəni ziyarət edənlərin rahatlığı üçün hərtərəfli şərait yaradılıb. Türbənin ətrafında təmizlik və abadlıq işləri avstriyalı bərpaçı-memar Erik Pumerin rəhbərliyi ilə aparılıb.

Dövlətimizin başçısı və birinci xanım türbənin içərisinə daxil olublar. "Burada iki məzar var. Mülahizələrə görə, biri Nəsiminin qardaşı Şahi Xəndanın qəbridir. Digəri isə bir qadının qəbridir, anasının, yaxud da onun nişanlısının olması ehtimalı var", - deyə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov məlumat verib və konservasiya işlərinin davam etdiriləcəyini bildirib.

Dövlətimizin başçısı və birinci xanım türbənin önündə şəkil çəkdiriblər.

Daha sonra Prezident İlham Əliyev təmir-bərpa işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıqlarını verib.

# DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB

Dekabrın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib.

Müşavirədə Dövlət Komitəsinin rəhbərliyi, eləcə də mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Tədbirdə əvvəlcə 12 dekabr Heydər Əliyevin anım günü ilə bağlı Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra çıxış edən DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, 2019-cu il Azərbaycan üçün mühüm uğurlarla və bir sıra əlamətdar hadisələrlə zəngin olub. Dini sahə ilə bağlı ilin ən mühüm hadisəsi noyabr ayında Prezident İlham Əliyevin Sərəncamı ilə Bakıda Dünya dini liderlərinin II Sammitinin keçirilməsi olub. O, 70 ölkədən 500 nümayəndənin, nüfuzlu beynəlxalq təşkilatların qatıldığı zirvə görüşünün dinlərarası dialoqun möhkəmləndirilməsinə, mədəni əməkdaşlığa yaxşı imkanlar açdığını vurğulayıb. M.Qurbanlı belə mötəbər tədbirin Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyinin tamam olmasına təsadüf etməsini islami dəyərlərimizə və din xadimlərinə dövlət qayğısının növbəti təzahürü kimi dəyərləndirib.



Prezident İlham Əliyevin Sammitdəki çıxışında din sahəsindəki bütün məsələlərin, qarşıda duran vəzifələrin öz əksini tapdığını deyən DQİDK sədri il ərzində ölkədə dini durumla bağlı sabitliyi təmin etmək, qoruyub-saxlamaq, həmçinin tolerant mühitin daha da sağlamlaşdırılması, mənfi təzahürlərin aradan qaldırılması üçün bir sıra əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. Dövlət Komitəsinin əsasən 2 istiqamətdə - din pərdəsi adı altında yad dini baxışların yayılmasının qarşısının alınması və xurafata, cəhalətə qarşı sistemli şəkildə maarifləndirmə tədbirlərinin keçirdiyini bildirib. Cəmiyyətin bütün təbəqələrini əhatə edən tədbirlərin müxtəlif idarə və müəssisələr, məktəblər, ali təhsil müəssisələri, hərbi hissələr, cəzaçəkmə müəssisələrində reallaşdırıldığını diqqətə çatdıran Mübariz Qurbanlı qeyd edib ki, sözügedən tədbirlər cəmiyyəti, xüsusilə gəncləri dini mühitdəki tendensiyalar, xaricdən yönəlmiş təhdidlər, yad ideologiyaların ölkəmizə ixracına cəhdlər barədə məlumatlandırılmasında və maarifləndirilməsində xüsusi önəmə malikdir. Komitə sədri növbəti ildə də bu tədbirlərin əhatə dairəsinin genişləndirilməsinin nəzərdə tutulduğunu və bunun Dövlət Komitəsinin 2020-ci il üçün nəzərdə tutulmuş Tədbirlər Planında öz əksini tapdığını bildirib.

Sonda Dövlət Komitəsinin 2020-ci il üçün fəaliyyət planı, qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ YƏHUDİ TELEQRAF AGENTLİYİNƏ MÜSAHİBƏ VERİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı dekabrın 16-da Yəhudi Teleqraf Agentliyi və ABŞ-ın diplomatik nəşri olan "The Washington Diplomat" qəzetinin jurnalisti Lari Luksnerin suallarını cavablandırıb.

Dövlət Komitəsinin sədri müsahibəsində Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, tolerant və multikultural mühit, dinlərarası harmoniya, eləcə də dini icmalara dövlət qayğısı barədə danışıb. Bildirib ki, tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş ölkəmiz bu gün də eyni funksiyanı uğurla yerinə yetirir. Xalqımıza xas olan multikultural və tolerant dəyərlər əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət siyasəti nəticəsində daha da möhkəmlənib. Komitə sədri Azərbaycanda müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini, onların dilinə, dininə, mədəniyyətinə xalqımızın daim hörmətlə yanaşdığını, dövlət tərəfindən mütəmadi olaraq İslam və qeyri-islam dini icmalarına maliyyə yardımı göstərildiyini vurğulayıb. O qeyd edib ki, ölkəmizdə yəhudi sinaqoqları, pravoslav, katolik və lüteran kilsələri fəaliyyət göstərir, 35 qeyri-islam dini icması dövlət qeydiyyatına alınıb.

Ötən ay Bakıda 70-dən çox ölkənin görkəmli din xadimlərinin, nüfuzlu beynəlxalq təşkilatların, nümayəndə heyətlərinin qatıldığı "Dünya dini liderlərinin II Bakı sammiti"nin nəticələrindən də bəhs edən Mübariz Qurbanlı paytaxtımızın son illər bu sahədə beyin mərkəzinə çevrildiyini vurğulayıb.

Qeyd edək ki, Azərbaycanda mövcud olan dini mühit, birgəyaşayış, multikulturalizm və tolerantlıq ənənələri ilə daha yaxından tanış olmaq və bu barədə material hazırlamaq məqsədilə ölkəmizə gələn Yəhudi Teleqraf Agentliyi səfərləri müddətində müxtəlif məscid, kilsə və sinaqoqlarda çəkilişlər aparıblar.

# "PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİ: MƏDƏNİYYƏTLƏRARASI VƏ DİNLƏRARASI HARMONİYA"

Dekabrın 18-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Prezident İlham Əliyevin siyasəti: mədəniyyətlərarası və dinlərarası harmoniya" mövzusunda konfrans keçirilib.




ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçən tədbirdə dövlət rəsmiləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, elm, mədəniyyət və incəsənət xadimləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransda QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək deyib ki, nümunəvi tolerantlıq və multikulturalizmin hökm sürdüyü, dinc birgəyaşayış və dialoq mədəniyyətinin, mənəvi harmoniyanın mövcud olduğu Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu dövlət başçımızın qlobal təşəbbüs və səyləri, siyasi iradəsi sayəsində layiqli şəkildə həyata keçirir.

Qeyd edib ki, Azərbaycan dövləti ötən ay beynəlxalq müstəvidə dini, siyasi və elmi ictimaiyyətin qlobal problemlərin birgə müzakirəsini təmin etməklə nümunəvi ilkə imza atıb. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüs və çağırışı ilə ərsəyə gəlmiş Dünya dini liderlərinin II Bakı sammiti Azərbaycanın dünya miqyasında mədəni-mənəvi dəyərlər mərkəzi statusunu bir daha təsdiqləyib.

Şeyxülislam Allahşükür Paşazadə bildirib: "Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, antisemitizm, radikalizm təzahürlərinin artdığı, miqrant böhranının yaşandığı müasir dövrdə Azərbaycanın dövlət başçısı qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında cəm olmağa çağırmaqla həmrəylik, humanizm ideallarının bərqərar olmasına öz töhfəsini verir. Dini-mədəni dəyərlərə savaş açıldığı narahat dünyamıza Azərbaycan öz nadir təcrübəsini - multikulturalizm modelini təklif edir. Beləliklə, bu gün Azərbaycan öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, dünya dini liderlərinin sammitlərinə ev sahibliyi, qlobal hərəkata çevrilmiş "Bakı Prosesi"nə rəhbərlik edir. Prezident İlham Əliyevin dövlət-din siyasəti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dünya miqyasında siyasi-mədəni sahədə dəyərli fəaliyyəti sayəsində bu gün Azərbaycan dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin milli birlik, mənəvi vəhdət, dini-mədəni müxtəlifliyin, mədəniyyətlərarası və dinlərarası harmoniyanın unikal nümunəsidir".

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizdə sivilizasiyalararası, mədəniyyətlərarası, dinlərarası dialoqun ən müxtəlif formaları dövlət səviyyəsində dəstəklənir, ölkəmiz bu dialoqun əsas mərkəzlərindən biri kimi qəbul olunur: "Bu, Azərbaycan Prezidentinin ardıcıl fəaliyyəti ilə bağlı olan prinsiplərdir. Ölkəmizdə, sözün əsl mənasında müstəqillik dövründə Azərbaycançılıq prinsipinə əsaslanan və digər xalqların mədəniyyətləri ilə zənginlənmiş yeni tipli bir mədəniyyət formalaşıb. Bu mədəniyyət Azərbaycanda birgəyaşayışa, çoxmillətli cəmiyyətin harmoniyasına, multikultural dəyərlərin ön mövqeyə çəkilməsinə, dinlərarası harmoniyanın möhkəm üzvi sintezinin yaranmasına gətirib çıxarıb".

Mədəniyyət naziri Əbülfəs Qarayev qeyd edib ki, bu il bizim üçün uğurlu il olub, paytaxtımız dörd mühüm tədbirə ev sahibliyi edib. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası, Qoşulmama hərəkatı, Dünya dini liderlərinin II Sammitinin Bakıda keçirilməsi ölkəmizdəki tolerantlıq mühitindən xəbər verir. "Ölkəmizdə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ötən 10 ildə elə bir nüfuz qazanıb ki, artıq nə beynəlxalq təşkilatlar, nə də hər hansı bir dövlət bu nüfuzu şübhə altına sala bilməz. İki il əvvəl BMT-nin Baş katibi və bu il BMT-nin Baş Assambleyası Mədəniyyətlərarası Dialoq Forumunu dünyanın ən əsas qlobal platformalarından biri kimi elan etdi. Bu istiqamətdə Azərbaycanda keçirilən tədbirlər ölkəmizin mövqeyini daha da artırır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sayəsində 13 qeyri-maddi və 3 mədəni irsimiz UNESKO-nun siyahısına daxil edilib. Azərbaycan dünyada təkcə neft ölkəsi deyil, həm də mədəniyyət, tarix, tolerantlıq nümayiş etdirir. Müxtəlif mədəniyyətlərə hörmət xalqımızın mədəniyyətinin bir parçası kimi formalaşaraq inkişaf edib", - deyə nazir vurğulayıb.

Mədəniyyətlərarası və dinlərarası harmoniyanın müasir dünyamızın ən mühüm çağırışlarından biri olduğunu deyən DQİDK-nın sədri Mübariz Qurbanlı qeyd edib ki, bu gün baş verən hadisələrin kökünü tarixin hansısa hissəsində görürük. Komitə sədri son üç əsr dünyada baş verən hadisələrə, problemlərə nəzər salaraq bu problemlərin həll edilməsi üçün sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoqun vacibliyini vurğulayıb. Bildirib ki, bu gün dini və etnik zəmində onlarla münaqişənin davam etdiyi bir dövrdə öz mədəniyyətimizin, dilimizin, dinimizin qorunması vacib məsələdir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə biz dini-mənəvi, həm də mədəni dəyərlərimizi mühafizə edə bildik. Prezident İlham Əliyevin sayəsində isə bu dəyərləri daha da zənginləşdirdik, onu həm ölkəmizin, həm də dünyamızın inkişafı üçün böyük potensiala çevirdik. Bu prosesdə ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri xüsusi vurğulanmalıdır.

Komitə sədrinin sözlərinə görə, mədəniyyətlər və dinlərarası dialoq dedikdə ilk ağıla gələn ölkələrdən biri də Azərbaycandır. Hər kəs ölkəmizi sülhün, dialoqun mərkəzi və dəstəkçisi kimi tanıyır və qəbul edir.

Konfransda çıxış edən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Roma katolik kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasının sədri Robert Mobili Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda dövlət-din münasibətlərinin inkişaf dinamikası, Azərbaycan cəmiyyətinə xas olan tolerant və multikultural ənənələrin dövlətin dəstəyi ilə daha da inkişaf etməsi, dini konfessiyalara dövlət qayğısı, ölkəmizin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə verdiyi töhfələrdən söz açıblar.

# "DİNİ MAARİFLƏNDİRMƏ İŞİNİN TƏŞKİLİNDƏ DİNİ ƏDƏBİYYATIN YERİ VƏ ROLU"

Dekabrın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini maarifləndirmə işinin təşkilində dini ədəbiyyatın yeri və rolu" mövzusunda konfrans keçirilib.



Konfrans çərçivəsində DQİDK, Qafqaz Müsəlmanları İdarəsi, Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan Bibliya Cəmiyyəti tərəfindən nəşr edilən kitablar sərgilənib. Sərgidə milli-mənəvi dəyərlərimizin qorunması, xalqımızın tolerant və multikultural ideyalarının və ənənəvi dini dəyərlərinin təbliği, dövlət-din münasibətlərinin fəlsəfi-siyasi, hüquqi əsaslarının və sosial-analitik təhlili, həmçinin dini maarifləndirmə işinin təşkili məqsədilə bir sıra kitab, kitabça və digər məlumat materialları nümayiş olunub.

Konfransda DQDİK və Qafqaz Müsəlmanları İdarəsinin rəhbərliyi, Bakıdakı mərkəzləşmiş kitabxanaların və nəşriyyatların direktorları, din xadimləri, media və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə sərgi ilə tanış olublar.

DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, son illər ölkədə ümumi sayı təqribən 550 mindən çox 212 adda dini ədəbiyyat nəşr edilib. Onlardan 14-ü dövlətin din siyasətinə, 34-ü multikulturalizm və tolerantlığa,114-ü milli-mənəvi dəyərlərimizə həsr olunub. Əsas istiqamətlərdən biri olan dini radikalizmlə mübarizə mövzusunda isə 50 adda ədəbiyyat nəşr olunub. M.Qurbanlı vurğulayıb ki, Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən 2018-2019-cu illərdə 43 adda kitab nəşr olunub ki, gələn ilin əvvəlinə qədər bu sayın 94-ə çatdırılması nəzərdə tutulub.

QMİ sədrinin birinci müavini, müfti Hacı Salman Musayev, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov və Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiri Elçin Əhmədov bildiriblər ki, təşkil edilən kitab sərgisinə tədbir iştirakçıları tərəfindən böyük maraq göstərilir. Qeyd olunub ki, Dövlət Komitəsinin nəşr etdiyi dini ədəbiyyatın Azərbaycan dili ilə yanaşı, xarici dillərdə də çap olunması və yayılması ölkəmizə xas dini mədəniyyətin daha geniş oxucu kütlələrinə çatdırılmasına rəvac verir. Dinin hüquqi, pedaqoji, sosioloji, fəlsəfi mahiyyətinin əks olunduğu kitablar istər dini maarifləndirmə, istərsə də elmi tədqiqat işlərində vacib mənbə kimi istifadə oluna bilər.

# "ZORAKI EKSTREMİZM İLƏ MÜBARİZƏ: BİRGƏ TƏRƏFDAŞLIQLA DAYANIQLIĞIN GÜCLƏNDİRİLMƏSİ"



Dekabrın 10-da Bakıda ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD), Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Zorakı ekstremizm ilə mübarizə: birgə tərəfdaşlıqla dayanıqlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans keçirilib.

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Gjorgjiev konfransı giriş sözü ilə açaraq ekstremizmin təhlükələri barədə danışıb. Dini, zorakı ekstremizmə qarşı mübarizədə maarifləndirmə, təhsil, savadlanma, profilaktik tədbirlərin olduqca vacib olduğunu qeyd edib. V.Gjorgjiev Azərbaycan hökumətinin həyata keçirdiyi siyasətin ana xəttini multikulturalizmin təşkil etdiyini və bunun çox uğurlu siyasət olduğunu vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dini radikalizm və ekstremizmlə mübarizə ilə bağlı həyata keçirilən dövlət səviyyəli tədbirlər barədə məlumat verib. Bildirib ki, ekstremizmlə mübarizə bəşəriyyətin qarşısında duran həlli vacib olan məsələlərdən biridir. Onun sözlərinə görə, ölkəmizdə də din pərdəsi altında gizlənərək öz maraqlarını həyata keçirməyə çalışan qruplar olub ki, onlara qarşı vaxtında profilaktik tədbirlər görülüb.

Ölkəmizdəki dinlərarası harmoniya haqqında da danışan Mübariz Qurbanlı qeyd edib ki, Azərbaycanda bütün dinlərin fəaliyyəti üçün şərait yaradılıb, dini konfessiyalar harmoniya içərisində yaşayır. Konstitusiyamızda, qanunlarımızda hər hansı bir dinin üstün mövqedə olması öz əksini tapmayıb.

Sonra BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsaqzai, İdarəçilik və iqtisadi dayanıqlılıq ofisinin direktoru, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Azərbaycan üzrə missiyası Aylin Loules, Milli Məclisin deputatı Elman Nəsirov, DQİDK sədrinin müavini Səyavuş Heydərov çıxış ediblər. Natiqlər bildiriblər ki, ekstremizm sərhədlər tanımayan bir təhdiddir. Bunun qarşısını almaq üçün birgə səy göstərilməsi vacibdir. Qeyd olunub ki, sülh və təhlükəsizliyin qorunması, dayanıqlı inkişafın təmin edilməsi, insan hüquqlarına hörmətin artırılması ekstremizmə qarşı mübarizədə vacib əhəmiyyət kəsb edir. Natiqlər Azərbaycanın bu istiqamətdə gördüyü işləri yüksək qiymətləndirib.

Daha sonra konfransın "Zorakı ekstremizm və radikallaşmanı anlamaq: nəzəri yanaşmalar və elmi tədqiqat", "Birgə qabaqlayıcı addımlar: Tərəfdaşlıq vasitəsilə yerli dayanıqlığın gücləndirilməsi" adlı bölmələrində Beynəlxalq Miqrasiya Təşkilatının Baş Qərargahı, Keçid və Bərpa məsələləri Bölməsinin nümayəndəsi Ceyson Aplon, BMqT-nin Azərbaycandakı Nümayəndəliyinin əməkdaşı Müşfiq Eminov, Azərbaycan İlahiyyat İnsititutunun rektoru Ceyhun Məmmədov, BMqT-nin Şimali Makedoniya Respublikasındakı Nümayəndəliyinin əməkdaşı Erda Qazim, Qafqaz Siyasi Analiz Mərkəzinin rəhbəri, Dövlət İdarəçilik Akademiyasının müəllimi Əhməd Əlili, BMqT-nin Bosniya və Herseqovinadakı Nümayəndəliyinin əməkdaşı Emil Balavac, DQİDK-nın sədr müavini Gündüz İsmayılov, BMqT-nin Şimali Makedoniya Respublikasındakı Nümayəndəliyinin rəhbəri Sonja Bozinovska, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin Siyasi, İqtisadi və İnformasiya bölməsinin əməkdaşı Dr Ausra Raisyte-Daukantiene, Azərbaycan İlahiyyat İnsititutunun prorektoru Aqil Şirinov, BMqT-nin Azərbaycandakı Nümayəndəliyinin əməkdaşı Anar İskəndərov, BMqT-nin Bosniya və Herseqovinadakı Nümayəndəliyinin əməkdaşı Aida Skenderagic çıxış ediblər.

Beynəlxalq konfrans müzakirələrlə öz işini yekunlaşdırıb.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR





Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı dekabrın 11-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab ilə görüşüb.

Mübariz Qurbanlı dövlət-din münasibətlərinin uğurla tənzimlənməsi üzrə ölkəmizdə görülmüş işlərdən danışıb. Bildirib ki, Azərbaycan dövləti bütün dini konfessiya nümayəndələrinin öz dinlərini, mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamasına və inkişaf etdirməsinə hər cür qayğı göstərir.

Səmimi qəbula görə Dövlət Komitəsi sədrinə minnətdarlığını bildirən səfir Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab deyib ki, iki dost xalq oxşar dəyərlərə sahibdir, ölkələrimizdə multikultural və tolerant ənənələr, harmonik münasibətlər mövcuddur.

* * *

Dekabrın 13-də DQİDK-nın sədr müavini Səyavuş Heydərov "Yehovanın Şahidləri" Avropa Assosiasiyasının sədri Toni Breys və qurumun nümayəndəsi Mariyano Makiyas Quzman ilə görüşüb.

Komitə sədrinin müavini qonaqlara ölkəmizdəki nümunəvi tolerant və multikultural mühit barədə məlumat verərək bildirib ki, Azərbaycan əhalisinin çox hissəsini müsəlmanların təşkil etməsinə baxmayaraq, digər dinlərin nümayəndələrinə qarşı hər zaman öz humanist mövqeyi ilə seçilib. O, ölkəmizdə dini icmaların qanun çərçivəsində azad fəaliyyəti üçün zəruri şəraitin yaradıldığını, eləcə də onlara dövlətimiz tərəfindən maddi və mənəvi dəstək göstərildiyini bildirib. Vurğulayıb ki, bütün dini qurumlara tam şərait yaradılıb, dini konfessiya nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur.

Ölkəmizə yenidən səfərindən məmnunluğunu ifadə edən Toni Breys səmimi görüşə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib. T.Breys son illərdə ölkəmizdə "Yehovanın şahidləri" dini icmasının üzvlərinin normal fəaliyyətinin təmin olunması, xüsusi ayinlərin icrası və dini bayramlarının qeyd olunması üçün yaradılan şəraitə görə razılığını ifadə edib.



* * *

Dekabrın 25-də isə Səyavuş Heydərov Qazaxıstan Respublikasının N.Nazarbayev adına Dinlərarası və Sivilizasiyalararası Dialoqun İnkişafı Mərkəzinin Departament rəhbəri Karlıqaş T.Kalilaxanova ilə görüşüb.

S.Heydərov Azərbaycan və Qazaxıstanda insanların sabitlik, tolerantlıq və multikulturalizm şəraitində yaşamalarının əhəmiyyətinə diqqət çəkərək, bunu ölkələrimizin nailiyyəti adlandırıb. O, Bakıda keçirilən mədəniyyətlərarası və humanitar forumların əhəmiyyətindən danışıb, bunu ölkəmizin, xüsusilə dövlətimizin başçısının dinlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfənin təzahürü kimi qiymətləndirib.

Karlıqaş T.Kalilaxanova iki ölkə arasında din siyasətinin həyata keçirilməsinin oxşar cəhətləri barədə danışıb. Qonaq Azərbaycanın multikulturalizm modelinin mükəmməl olduğunu bildirib və respublikada multikulturalizm və sivilizasiyalararası dialoq ideyasının təşviqi istiqamətində görülən işləri yüksək qiymətləndirib.

# “MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR”



Dekabrın 17-də Ağdaşda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda regional konfrans keçirilib.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, habelə ictimaiyyət fəalları iştirak ediblər.

Ağdaş şəhər Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə öncə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilən “Heydər Əliyev: dəyərlərimizin xilaskarı” sənədli filmi nümayiş etdirilib.

Konfransı açan rayon icra hakimiyyətinin başçısı Tofiq İbrahimov rayondakı dini durum və dini icmaların qarşılıqlı fəaliyyəti barədə ətraflı məlumat verib, Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din siyasətinin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı terrorizm və ekstremizmin müasir dünya üçün ən ciddi təhdidlərdən olduğunu diqqətə çatdıraraq, bu gün terror əməllərinin böyük hissəsinin müsəlman coğrafiyasını əhatə etdiyini söyləyib. Təəssüflə bildirib ki, hazırda dünyada 169 müharibə ocağı var. Onun 30-da hər gün insanlar qətlə yetirilir. Komitə sədri vurğulayıb ki, dünyanın bir çox ölkəsində din amilindən istifadə vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxarır. Hazırda dinlər və sivilizasiyalar arasında toqquşmalar XX əsrdə “soyuq müharibə” illərindəki ideoloji toqquşmanı əvəz edib.

Komitə sədri çıxışı zamanı dövlət-din münasibətlərinin tənzimlənməsindən, milli-dini dözümlülük, sülhsevərlik və humanizm dəyərlərinin önəmindən, dini radikalizm və xurafat elementlərinə qarşı mübarizədə maarifləndirmənin əhəmiyyətindən danışıb.

Dövlət-din münasibətlərinin tənzimlənməsi işində Ümummilli Lider Heydər Əliyevin mühüm xidmətlərini diqqətə çatdıran Komitə sədri dinə dövlət qayğısından, dövlət-din münasibətlərinin inkişaf dinamikasından və bu sahədə Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətdən bəhs edib.

Regional konfransda radikalizmə, ekstremizmə qarşı mübarizədə maarifləndirmənin alternativi olmadığı bildirilib, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan islami dəyərlərimizin qorunmasında, bu dəyərlərin əsl mahiyyətinin gənc nəslə çatdırılmasında din xadimlərinin, ziyalıların vəzifələrindən danışılıb.

* * *

İkigünlük regional konfrans “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panellə öz işini davam etdirib.

Tədbiri giriş sözü ilə açan Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynur Novruzova bu istiqamətdə keçirilən tədbirlərin cəmiyyətin maarifləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını bildirib. Cəmiyyətimizin, xüsusilə gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi üçün maarifləndirici tədbirlərin mütəmadi keçirilməsinin önəmini qeyd edib.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov dini radikalizmə qarşı mübarizədə milli-mənəvi və dini dəyərlərin təbliğinin əhəmiyyətindən bəhs edib. Dini radikalizmi doğuran səbəblərdən biri kimi dinlərin mahiyyətinin təhrif olunmasını göstərən sədr müavini



diqqətə çatdırıb ki, dini bilgiləri zəif olan insanların radikal cərəyanlara, qruplara cəlb edilməsi daha asan olur. Bu səbəbdən dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir. Dini radikalizmə qarşı mübarizə tədbirləri haqqında məlumat verən Gündüz İsmayılov respublikamızda bu istiqamətdə sistemli maarifləndirmə işinin aparıldığını vurğulayıb.

Dini radikalizmin sosial və ictimai zərərləri, yaranma səbəbləri və təbliğatının qarşısını almaq yollarında da danışan Komitə rəsmisi sonda tədbir iştirakçılarının suallarını cavablandırıb.

# DÖVLƏT KOMİTƏSİNİN RƏHBƏRLİYİ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu sədvəlinə uyğun olaraq dekabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ağdaş və Yevlax rayonlarından, Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov Mingəçevir şəhərindən, sədr müavini Gündüz İsmayılov isə Bərdə rayonundan olan vətəndaşları qəbul ediblər.

Ağdaş şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbuldan öncə DQİDK-nın sədri Mübariz Qurbanlı və rayon icra hakimiyyətinin başçısı Tofiq İbrahimov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə çiçəklər qoyublar.

Qəbullarda əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb.

Müraciətlər diqqətlə dinlənilib, bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin həlli üçün müvafiq tapşırıqlar verilib.

# MÜBARİZ QURBANLI: MƏDƏNİYYƏTLƏR VƏ SİVİLİZASİYALAR ARASI ƏLAQƏLƏRİN GÜCLƏNDİRİLMƏSİ ÇOX VACİBDİR

“Azərbaycan ayrı-ayrı sivilizasiyaların, mədəniyyətlərin qovşağında yerləşir. Prezident İlham Əliyevin siyasətində mədəniyyətlər və sivilizasiyalararası münasibətlər məsələsi önəmli yerlərdən birini tutur. Bakı şəhərində bununla bağlı çoxsaylı tədbirlər keçirilib”.

Bu sözləri jurnalistlərə müsahibəsində “Prezident İlham Əliyevin siyasəti: mədəniyyətlərarası və dinlərarası harmoniya” mövzusunda keçirilən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

“Azərbaycan “Bakı prosesi”nin həyata keçirilməsində aparıcı rol oynayan ölkədir. Eyni zamanda, mədəniyyətlərarası dialoq məsələsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu həm Azərbaycanda, həm də xaricdə çoxsaylı tədbirlərə imza atıb. Bugünkü dünyamızda mədəniyyətlər və sivilizasiyalar arası əlaqələrin gücləndirilməsi çox vacibdir, çünki müasir dünyamızı təhdid edən bir sıra məsələlər var ki, bunların həll edilməsində dialoq mühitinin gücləndirilməsi çox vacib elementlərdən biridir. Qafqaz Müsəlmanları İdarəsi ilə birgə Dövlət Komitəsi bu sahədə çoxsaylı tədbirlər həyata keçirib. Bu yaxınlarda Bakıda dünya liderlərinin ikinci sammiti keçirilmiş, Bakı bəyannaməsi qəbul edilib. Bütövlükdə bu tədbirlərin əhəmiyyəti Azərbaycanın multikultural, tolerant dəyərlərinin dünyaya çatdırılmasında əhəmiyyətli yer tutur”, - deyə Komitə sədri bildirib

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"




## Masallıda

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Masallı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə dekabrın 10-11-də "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.

Din xadimləri, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısı Şahin Məmmədov rayondakı mövcud dini durum, dini icmaların və din xadimlərinin fəaliyyətləri barədə məlumat verib. Eyni zamanda, natiq çıxışında dini radikalizm və ekstremizmə qarşı mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində cəmiyyətin üzərinə düşən vəzifələrdən bəhs edib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu dövlət-din siyasəti nəticəsində respublikamızda din sahəsindəki mövcud vəziyyət sabit qiymətləndirilir, həmçinin Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir ölkələrdəndir. Dövlət Komitəsi sədrinin birinci müavini vurğulayıb ki, ölkəmizdə dövlət-din münasibətləri möhkəm təməllər üzərində qurulub və dindarlara, dini icmalara daim dövlət tərəfindən diqqət və qayğı göstərilir.

S.Salahlı təəssüflə qeyd edib ki, bəzi radikal qruplar ölkədə süni gərginlik yaratmağa, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər. Belə cəhdlərin qarşısı qanunvericilik çərçivəsində həmişə qətiyyətlə alınıb və bundan sonra da alınacaqdır.

Masallı RİH başçısının müavini Aybəniz Qafarova, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Saleh Aslanov, QMİ-nin bölgə qazısı Mirqiyas Təhməzov və başqaları çıxış edərək ölkəmizdə dini radikalizmə qarşı mübarizə tədbirlərinin əhəmiyyətindən danışıblar.

Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Üfüqdəki gələcək" filminin də nümayiş etdirildiyi ikigünlük seminar-müşavirə tədbir iştirakçılarının suallarının cavablandırılması ilə yekunlaşıb.

## Mingəçevirdə

Növbəti seminar-müşavirə dekabrın 18-19-da DQİDK və Mingəçevir Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə keçirilib.

Din xadimləri, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni giriş sözü ilə açan şəhər Mingəçevir ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Sahib Əliyev şəhərdəki mövcud dini durum, dini icmaların və din xadimlərinin fəaliyyəti barədə ətraflı məlumat verib. Eyni zamanda, dövlət-din münasibətləri və dini radikalizmə qarşı mübarizə istiqamətində görülən işlərdən danışıb.




Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, müstəqil Azərbaycanın memarı, Ümummilli Liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişib, müqəddəs ibadət ocaqlarının təmiri və inşası geniş vüsət alıb. S.Salahlının sözlərinə görə, Ulu Öndərin Azərbaycanda dövlət-din münasibətlərinin inkişafında, ölkəmizdə ictimai-siyasi, o cümlədən dini sabitliyin bərqərar olmasında müstəsna xidmətləri olub. Sevindirici haldır ki, bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Ramil Baxşəliyev, Mingəçevir ŞİH başçısı Aparatının nümayəndəsi Tofiq Əsgərov və başqaları çıxış edərək bildiriblər ki, milli və dini dəyərlərimizin qorunaraq gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Qeyd olunub ki, bu dəyərlərin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

# BAKIDA "DİN VƏ MULTİKULTURAL TƏHLÜKƏSİZLİK" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Dekabrın 16-da Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) birgə təşkilatçılığı ilə "Din və multikultural təhlükəsizlik" mövzusunda konfrans keçiriliib.

Tədbiri giriş sözü ilə açan DQİDK sədrinin müavini Səyavuş Heydərov dünyada dini zəmində baş verən hadisələrdən danışıb. O qeyd edib ki, dünyanın aparıcı güc mərkəzləri, bəzi iddialı ölkələr insan hüquqları, din azadlığı anlayışından öz geosiyasi, geoiqtisadi maraqlarını təmin etmək üçün bir alət, vasitə kimi istifadə edirlər. Bunun acı nəticəsinin özünü Yaxın Şərqdə göstərdiyini bildirən sədr müavini vurğulayıb ki, əsas narahatedici məqam hələ də bu neqativ, təhlükəli proseslərdən zəruri nəticə çıxarılmaması və bu zəmində baş verən proseslərin daha da genişlənməsidir.



Komitə sədrinin müavini diqqətə çatdırıb ki, belə bir zamanda Azərbaycan əsası Ulu Öndər tərəfindən qoyulan nümunəvi dövlət-din münasibətləri və müasir multikulturalizm siyasəti həyata keçirir. Onun sözlərinə görə, bu siyasət bəşəri dəyərlər sisteminə, xüsusilə beynəlxalq təhlükəsizliyə qarşı yaranmış təhdidlərin qarşısının alınmasında çox önəmli strategiyaya çevrilib. S.Heydərov qeyd edib ki, dünyada radikalizmin, ekstremizmin fəsadlarına yönəlik mübarizədə Azərbaycan strategiyasının alternativi yoxdur.

BBMM-nin icraçı direktoru Rəvan Həsənov qeyd edib ki, multikulturalizm siyasəti hansısa dövlətin rəsmi siyasətinə çevrilibsə, multikultural təhlükəsizlik də onun milli təhlükəsizliyinin tərkib hissəsinə çevrilməlidir. Bu məsələ getdikcə daha da aktuallaşır. Bu gün nadir ölkələr var ki, monoetnik xarakterlidir. Bildirilib ki, multikultral təhlükəsizlik sadəcə bir ifadə deyil, bunun konsepsiyası çox yaxın keçmişdə işlənib hazırlanıb və təkmilləşməkdə davam edir. Bu konsepsiyanın təməlində dayanan ən mühüm əlamətlərdən biri bərabərlik hüququnun təmin olunmasıdır.

Daha sonra Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təhlilçisi Araz Qurbanov "Multikultural təhlükəsizlik: problemlər və vəzifələr" mövzusunda təqdimatla çıxış edib.

Milli Məclisin deputatı Hikmət Babaoğlu qeyd edib ki, bəzi qlobal mərkəzlər daima bu mövzunu istismar etdiklərinə görə biz həmişə bunu diqqətdə saxlamalıyıq. O vurğulayıb ki, bu gün biz müharibələr dövründə yaşayırıq və çox təəssüf ki, din də müharibələr üçün bir alətə çevrilib. Cəmiyyətin bütövlüyü və harmoniyasının təmin olunmasının vacibliyinə də toxunan deputat bildirib ki, Azərbaycanda din və dövlət arasındakı münasibətlər Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyəti, DQİDK-nın yaradılması ilə yeni elmi praktik və real sistem yaratdı ki, bu da tarixdən gələn ənənələri qorumağı təmin edən instituta çevrildi.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov istənilən ölkədə, istənilən cəmiyyətdə tolerantlığın, multikultural mühitin, əmin-amanlığın əsaslarının üç faktora - dominant xalqın digər xalqlara olan münasibəti, dövlətin apardığı siyasət, ölkənin aparıcı dininin multikultural dəyərlərə, digər dinlərə, digər etnoslara olan münasibətinə söykəndiyini deyib. Əlavə edib ki, bu faktorlar bir-birini tamamlamazsa, orada mütləq sistem pozulacaq.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov isə çıxışında bildirib ki, müasir dünyada cərəyan edən mürəkkəb proseslər və baş verən münaqişələr hər bir xalqın milli-mənəvi və dini dəyərlərinin qorunması zərurətini dövrün aktual məsələlərindən birinə çevirir. O vurğulayıb ki, bu gün öz multikultural təhlükəsizliyini təmin edə bilməyən ölkələr terrordan və ekstremizmdən əziyyət çəkir. Hazırda dinlər və sivilizasiyalar arasında baş verən hadisələr XX əsrdə "soyuq müharibə" illərindəki ideoloji toqquşmanı əvəz edib. Belə hallarda siyasi oyunlara alət edilən din əsl missiyasını, mahiyyətini itirmiş olur.

AMEA-nın Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxışlarında multikultural və tolerant dəyərlərin təşviqinin əhəmiyyəti, eləcə də dini təhlükəsizliyin təmin edilməsində bu dəyərlərin rolu barədə fikirlərini bölüşüblər.

Tədbirin sonunda Azərbaycan İlahiyyat İnstitutunun I kurs tələbəsi Nicat Hüseynovun çıxışı dinlənilib.

Konfrans öz işini müzakirələrlə yekunlaşdırıb.

# DÜNYƏVİ DÖVLƏTDƏ DİN VƏ TƏHSİL MÜNASİBƏTLƏRİ MÜZAKİRƏ OLUNUB



## Bakıda

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (ŞTİ) birgə təşkilatçılığı ilə dekabrın 6-da "Din və dünyəvi təhsil" mövzusunda konfrans keçirilib.

Bakı şəhəri Sabunçu rayonunun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Bakı ŞTİ-nin müdir müavini Hüseyn Əsgərov qeyd edib ki, mənəvi dəyərlər sistemində dini dəyərlərimizin xüsusi yeri var. Onun sözlərinə görə, mənəvi dəyərlərimizin düzgün təbliği istiqamətində bu cür tədbirlərin keçirilməsi olduqca əhəmiyyətlidir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov deyib ki, əhalisinin 96 faizi müsəlman olan Azərbaycan dünyəvi, demokratik ölkədir və din dövlətdən ayrıdır. Vətəni sevmək, onu qorumağın dinimizdə vacib buyurulduğunu diqqətə çatdıran G.İsmayılov qeyd edib ki, hər bir şəxs, o cümlədən dindarlar ölkəsini, Vətənini sevməlidir.

İslamın sülh, əmin-amanlıq, inkişafa, elmə və təhsilə böyük önəm verdiyini vurğulayan sədr müavini bildirib ki, dünyada, eləcə də Azərbaycanda dinin siyasiləşdirilməsinə və məzhəbçiliyin təbliğinə cəhdlər edilsə də, bu cəhdlərin heç bir perspektivi yoxdur.

Konfrans müzakirələrlə davam edib.

## Gəncədə

Dekabrın 16-da DQİDK və Gəncə Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə baş tutan "Dünyəvi dövlətdə din və təhsil" mövzusundakı seminar-treninqdə də dünyəvi dövlətdə din və təhsil münasibətləri müzakirə olunub.

Tədbirdə DQİDK və Gəncə ŞİH-in rəhbər şəxsləri, məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Gəncə ŞİH-in başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Həsən Məmmədov mövzunun əhəmiyyətinə toxunub. O, gənclərimizin milli-mənəvi dəyərlərimizin əsasında tərbiyə olunmasının vacibliyinə diqqət çəkib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində görülən işlər barədə məlumat verib. Sədr müavini xalqımızın tolerantlıq ənənələrinin və



dini müxtəlifliyimizin tolerant əsaslarının qorunub saxlanılmasının, Azərbaycanın əldə etdiyi multikultural nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliğinin, eyni zamanda tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanılmasına dəstəyin göstərilməsinin dövlət-din siyasətinin əsas prioritet istiqamətləri olduğunu bildirib.

G.İsmayılov vurğulayıb ki, gənclərdən əsas gözlənti yüksək səviyyədə dünyəvi təhsilə yiyələnmələridir. Bununla bərabər, məktəblilərin radikal dini cərəyanların təsirlərindən qorunmaları, ilkin dini bilgiləri etibarlı mənbələrdən öyrənmələri məqsədi ilə "Həyat bilgisi" fənni tərkibində sistemli şəkildə dini informasiya verilməsi olduqca faydalıdır.

## Bərdədə

Analoji tədbir dekabrın 17-də DQİDK və Bərdə Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı keçirilib.

Seminar-treninqdə məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Bərdə RİH başçısı Aparatının nümayəndəsi Asif Abbasov bu cür tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirib. Eyni zamanda, A.Abbasov rayondakı dini durum barədə ətraflı məlumat verib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, Azərbaycan xalqının əsrlər boyu mövcud olan tolerantlıq və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Sədr müavininin sözlərinə görə, Prezident İlham Əliyev Azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxlayır. DQİDK-nın sədr müavini Gündüz İsmayılov onu da vurğulayıb ki, ibadətlə yanaşı, İslam dini birliyə və həmrəyliyə böyük önəm verir: "Dinimizin əsas məqsədlərindən biri də cəmiyyət, dövlət və ailə üçün faydalı olan, bilikli, elmli savadlı nümunəvi vətəndaş formalaşdırmaqdır".

Tədbirlər mövzu ətrafında müzakirələrlə başa çatıb.



# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, milli-mənəvi dəyərlərin təbliği, eyni zamanda gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması istiqamətində maarifləndirmə işini davam etdirir. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyətləri, təhsil şöbələri, hüquq mühafizə orqanları və digər qurumların nümayəndələri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK və yerli qurumların birgə təşkilatçılığı ilə, həmçinin Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:*

**3 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Rayon Peşə Məktəbində "Milli-mənəvi dəyərlər keçmişdən bu günə" mövzusunda;

**5 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən Rayon Təhsil Şöbəsinin (RTŞ) birgə təşkilatçılığı ilə Balakən rayon Yeni Şərif kənd tam orta məktəbində "Gənclər dini radikalizmə qarşıdır" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Astara rayonunda;

**9 dekabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və QMİ-nin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Mənəvi dəyərlərimizin qorunması və təbliği" mövzusunda;

**10 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə Zaqatala rayon Əliabad İslam Kollecində "Gənclərin narkomaniya və onun təzahürlərindən qorunmasında dini icmaların və din xadimlərinin rolu" mövzusunda;

**12 dekabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar Astara rayonu Lovayın kənd məscidində;

**13 dekabr** – DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planı çərçivəsində 16 və 17 saylı cəzaçəkmə müəssisələrində "Dini ekstremizmə aparan yol, fanatizm və radikalizm, radikal dini qrupların psixoloji təsir metodları" mövzusunda;

**17 dekabr** – DQİDK və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə Kürdəmir rayonu Sığırlı kəndində "Dini radikalizmlə mübarizə: necə və nə etməli?" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala RTŞ-nin birgə təşkilatçılığı ilə Qazangül kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlər: dünən, bu gün və sabah" mövzusunda; DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planı çərçivəsində Salyan rayonunda yerləşən 5 saylı cəzaçəkmə müəssisəsində;

**19 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən RTŞ-nin birgə təşkilatçılığı ilə Balakən rayon Əli Şirinov adına Qaravəli kənd tam orta məktəbində; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Ağstafa Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçlığı ilə "Mədəniyyətlərarası və dinlərarası dialoq" mövzusunda;

**26 dekabr** – DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planı çərçivəsində Şəki şəhərində yerləşən cəzaçəkmə müəssisəsində "Milli həmrəyliyin möhkəmlənməsində dini həmrəyliyin rolu" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran ŞTŞ-nin birgə təşkilatçılığı ilə "Gənclərin radikal dini təsirlərdən və zərərli vərdişlərdən qorunmasında mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran ŞTŞ-nin birgə təşkilatçılığı ilə rayonun Velədi kənd ümumi orta məktəbində "Mənəvi dəyərlərimizin qorunması və təbliğində gənclərin rolu" mövzusunda baş tutmuşdur.

Tədbirlərdə ölkədə dini etiqad azadlığının yüksək səviyyədə təmin olunmasından, bütün dini konfessiyalara yaradılan şəraitdən, dövlətin bu sahəyə xüsusi diqqət və qayğısından danışılıb. Çıxışçılar dini radikalizm, zərərli vərdişlər və onların fəsadları haqqında tədbir iştirakçılarına məlumat veriblər. Vurğulanıb ki, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin elmə yiyələnməsi, milli-mənəvi dəyərlər ruhunda formalaşması olduqca əhəmiyyətlidir.

# MÖHSÜN NAĞISOYLU: NƏSİMİ ƏSƏRLƏRİNDƏ QURANA ƏN ÇOX MÜRACİƏT EDƏN ŞAİRLƏRDƏN OLUB, ONU NECƏ DİNSİZ SAYMAQ OLAR?

## *AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoylunun "Cəmiyyət və Din" qəzetinə müsahibəsi*

**- Möhsün müəllim, istəyirəm, söhbətimizə ölkə Prezidenti cənab İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 15 noyabr 2018-ci il tarixli və "2019-cu ilin Nəsimi ili elan edilməsi haqqında" 11 yanvar 2019-cu il tarixli Sərəncamlarını dəyərləndirməklə başlayaq.**

- Əvvəlcə onu deyim ki, Nəsimi Azərbaycanın ən böyük milli şairlərindəndir. Mən bunu Ulu Öndərimizin "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" kəlamına əsaslanaraq deyirəm. Deməli, dil birbaşa milliliklə bağlıdır. Dil həm də xalqın milli-mənəvi sərvətidir. Və bizim ana dilimizi ərəb və fars dilləri səviyyəsinə ilk dəfə yüksəldən məhz Nəsimi olub. Belə bir deyim var: "Əsl dil ərəbin dilidir. Fars dili şəkərdir, şirindir. Türk dili hünərdir". Ərəb dilini ona görə əsl dil adlandırırdılar ki, Quran bu dildə nazil olub. Ərəb dili bədiiliyinə, təmtəraqına görə birinci yerdədir. Fars dili ona görə şirin dil adlandırılır ki, Nizami Gəncəvi, Mövlana Cəlaləddin Rumi kimi dahilər bu dildə yazıblar, çünki fars dili şeir dilidir. Türk dili isə hünər dili idi, bu dildə danışanlara xor baxırdılar. Nəsimi isə bu ehkamı darmadağın etdi. Baxın, o, ərəbcə də yazıb, farsca da, ancaq daha çox türkcə yazdığı şeirlərinə görə tanınır. Nəsimi sübut etdi ki, türk dili zənginliyinə, poetikliyinə, axıcılığına görə ərəb və fars dilləri səviyyəsindədir. Düzdür, ondan əvvəl Qazı Bürhanəddin, İzzəddin Həsənoğlu, Nəsir Bakuvi kimi ana dilimizdə yazan şairlər olub. Amma onların şeirləri

*Nəsimi sübut etdi ki, türk dili zənginliyinə, poetikliyinə, axıcılığına görə ərəb və fars dilləri səviyyəsindədir.*

poetiklik, rəvanlıq, axıcılıq, ahəngdarlıq, musiqilik baxımından ərəb və fars dillərindəki şeirlərin səviyyəsində deyildi. Şeirin əsas xüsusiyyətlərindən biri bədiilik və poetiklikdir. Ona görə də Nəsimi bizim üçün olduqca böyük sənətkardır. Şairə ilk dəfə böyük dəyər verən isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev olub. Ulu Öndər 1970-ci ildə Suriyada olarkən şəxsi təşəbbüsü ilə Nəsiminin məzarını ziyarət edib, məzarın bərpası üçün göstəriş verib. Qayıdandan sonra ovaxtkı SSRİ rəhbərliyinə məktubla müraciət edərək Nəsiminin 600 illik yubileyinin keçirilməsini istəyib. 1972-ci ildə icazə alındı və bir il sonra Nəsiminin yubileyi 29 ölkədən gələn görkəmli alimlərin iştirakı ilə yüksək səviyyədə qeyd olundu. Bundan başqa, yubiley çərçivəsində çox böyük işlər görüldü. Məsələn, Nəsiminin heykəli ucaldıldı, "Nəsimi" bədii filmi çəkildi, Bakının rayonlarından birinə və Dilçilik İnstitutuna onun adı verildi. Eyni zamanda 1973-cü ildə Nəsiminin əsərlərinin üçcildlik elmi-tənqidi mətni hazırlanaraq çap olundu. Kitabların müəllifi görkəmli nəsimişünas alim Cahangir Qəhrəmanov idi. Ondan əvvəl 1926-cı ildə görkəmli ədibimiz Salman Mümtaz "Azərbaycan ədəbiyyatı" seriyasından Nəsiminin əsərlərini ərəb əlifbası ilə nəşr etdirmişdi. Professor Cahangir Qəhrəmanov isə həm 1970-ci ildə "Nəsiminin divanının leksikası" kitabını yazıb, həm də onun əsərlərinin elmi-tənqidi mətnini hazırlayıb. Deməyim odur ki, bu işlərin bünövrəsi Ulu Öndərin hakimiyyəti dövründə qoyulub. Ölkə Prezidenti cənab İlham Əliyev də varislik prinsipinə həmişə sadiq qalıb, Ümummilli Liderin siyasətini uğurla davam etdirib. Ona görə də təsadüfi deyil ki, İlham Əliyevin siyasətində humanitar məsələlər hər zaman xüsusi yer tutub. Qeyd etdiyiniz hər iki Sərəncam dövlət başçımızın bizim dilimizə, ədəbiyyatımıza, mədəniyyətimizə verdiyi yüksək qiymətin təzahürüdür. Və bu Sərəncamlar dilşünaslarımız, filoloqlarımız, filosoflarımız, ədəbiyyatçılarımız, şərqşünaslarımız qarşısında böyük vəzifələr qoyur. Çünki Nəsimi həm filosof, həm də böyük mütəfəkkir şairdir. Bu səbəbdən cənab Prezidentin Sərəncamlarını biz ziyalılar çox yüksək qiymətləndiririk.

**- Rəhbərlik etdiyiniz Dilçilik İnstitutunun bu il çərçivəsində nə kimi işlər gördü və nə kimi işlərin görülməsi gələcəyə saxlanıldı?**

Sərəncamın verilməsindən dərhal sonra Dilçilik İnstitutunda işlərə başlanıldı. İlk işlərimizdən biri institutun böyük elmi işçisi Xədicə xanım Heydərovanın müəllifliyi ilə "Nəsiminin ana dilimizdəki əsərlərinin izahlı – ensiklopedik lüğəti"nin birinci cildinin hazırlanması oldu və bu günlərdə nəşr edildi. Bilirsiniz ki, Nəsiminin əsərlərində işlədilən sözlərin həm lüğəvi mənası, həm də sufi yozumu, hürufi yozumu və digər fəlsəfi yozumları vardır. Bu məsələlər həmin kitabda geniş şəkildə verilib. Ümumiyyətlə, bu il Dilçilik İnstitutunda Nəsimi haqqında 5 kitab işıq üzü görüb. Onlardan birinin müəllifi Qüdsiyyə Qənbərovadır. Qeyd edim ki, "Nəsiminin dili və Azərbaycan dialektləri" mövzusu onun elmi işi olub və indi həm həmin elmi işini, həm də elmi məqalələrini monoqrafiya şəklində çap etdirib. Bundan əlavə, Elçin Məmmədovun "Nəsiminin leksikası Oğuz qrupu türk dilləri kontekstində" adlı monoqrafiyası işıq üzü görüb. Üçüncü gördüyümüz iş professor Sevil Mehdiyeva, elmlər namizədi Türkan Əsgərova və Şahnazxanım Şükürzadənin birgə yazdığı "İmadəddin Nəsimi: dili və üslübu" adlı monoqrafiyanın nəşrə hazırlanmasıdır. "Nəsimi irsinin nəşrləri: problemlər və perspektivlər" adlı daha bir kitabın müəllifi isə mənəm və bu günlərdə işıq üzü görmüşdür. Yəni Dilçilik İnstitutu tərəfindən bu il Nəsimiyə həsr olunmuş beş kitab ərsəyə gətirilib. Bundan əlavə, bir neçə nəfərə Nəsiminin əsərlərinin dili ilə bağlı dissertasiya işi – 2 nəfərə doktorluq işi, 3 nəfərə elmlər namizədi işi - vermişik. Düşünürəm ki, bu işləri gələcəkdə də davam etdirmək lazımdır. Doğrudur, Cahangir Qəhrəmanovun, Mirzağa Quluzadənin, Həmid Araslının Nəsimi irsinin araşdırılmasında böyük xidmətləri olub. Ancaq görüləsi işlər var. Bir dilçi, mətnşünas kimi düşünürəm ki, Nəsiminin əsərləri dilçilik, ədəbiyyatşünaslıq, fəlsəfi, şərqşünaslıq elmi baxımından daha geniş miqyasda araşdırılmalıdır. Eyni zamanda Nəsiminin əsərlərinin yeni akademik nəşrinə ehtiyac var. Akademik nəşr nə deməkdir? Biri var, kütləvi nəşr – bu, adi oxucu üçün nəzərdə tutulur. Adi oxucu üçün bəzi qədim sözlər müasirləşdirilir. Misal üçün, "Yüzünü məndən nihan etmək dilərsən, etməgil"i

*Bütün nəsimişünaslar etiraf edirlər ki, Nəsiminin əsərlərinin toplandığı kitablarda ona aid olmayan şeirlər də yer alır.*

müasirləşdirərək "üzünü" kimi veriblər. Akademik nəşrdə isə şairin dilinə, üslubuna toxunmaq olmaz, necə yazıbsa, elə də vermək lazımdır.

**- Elə Hüseyn Cavid də bunu deyirdi...**

- Bəli. Hüseyn Cavid dəfələrlə yazırdı ki, "imlasına toxunmamalı". Yəni o deyirdi ki, mən əgər "bən" yazmışamsa, "bən" də qalsın.

**- Məsələn, onun "Gülbahar" şeirinin dilinə toxunulmayıb.**

**Quzum, yavrum, adın nədir?**
**Gülbahar...**
- Pəki, sənin anan, baban varmı?
- Var.
- Nasıl, zənginmidir?
- Əvət, zəngin, bəyzadə...

Yəni klassik ədəbiyyata toxunmaq olmaz, necə varsa, elə də qalmalıdır. Çünki bu, mütəxəssislər üçün lazımdır. Ruhu şad olsun, Cahangir Qəhrəmanov o vaxt elmi-tənqidi mətni yazanda əlində cəmi 5 əlyazma var



idi. Sovet dövrü idi, uzağa çıxmaq olmurdu. Ancaq təkcə bu il Nəsiminin əsərlərinin 50-yə yaxın əlyazması aşkarlanıb və surətləri ölkəmizə gətirilib. Düşünürəm ki, alimizdə bu qədər material var ikən dahi şairimizin əsərlərinin yeni elmi-tənqidi mətni də hazırlanmalıdır.

**- Nədir elmi-tənqidi mətn?**

- Elmi-tənqidi mətn hazırlamaq müəllif nüsxəsinə yaxın olan mətni ortaya qoymaqdır. Bütün nəsimişünaslar etiraf edirlər ki, Nəsiminin əsərlərinin toplandığı kitablarda ona aid olmayan şeirlər də yer alır.

**- Mən xüsusilə "Ağrımaz" qəzəli ilə bağlı sual verəcəkdim, siz məni qabaqladınız...**

- Mən mütəxəssis kimi deyirəm və sübut edərəm ki, "Ağrımaz"la yanaşı, "Etdilər" də Nəsiminin deyil. Nəsimi yaza bilməzdi ki,

*Zahidin bir barmağın kəssən, dönüb haqdən qaçar,*
*Gör bu miskin aşiqi sərpa soyarlar, ağrımaz.*

Axı insan özü özünün soyulmasını qələmə ala bilməz! Yaxud "Etdilər" şeirini götürək. Deyir, "Nəsimini Hələbdə bər-dar etdilər". Nəsimi bunu yaza bilməzdi

*Bıçaqla dərisi soyulan adam yaza bilər ki, dərimi bıçaqla soydular? Yaxud dar ağacında olan adam bədahətən "Ağrımaz" qəzəlini deyə bilərdimi? Məntiqə sığmır axı.*

axı. Hətta bir şeir var, bir beytində yazılır ki, "bıçaqla məni soydular", başqa beytində deyilir ki, "xəncərlə mənim dərimi üzdülər". Bıçaqla dərisi soyulan adam yaza bilər ki, dərimi bıçaqla soydular? Yaxud dar ağacında olan adam bədahətən "Ağrımaz" qəzəlini deyə bilərdimi? Məntiqə sığmır axı. Həmid Araslı özünün ikicildliyində ayrıca "Əlavələr" bölməsi verib. Həmin bölməyə Nəsimiyə aid olmasından şübhə duyduğu "Ağrımaz"ı, "Etdilər"i salıb.

**- "Nəsimi" filmində bir epizod var, Nəsimini axtarırlar və meydana toplaşan gənclər bir-bir ortaya çıxıb deyirlər ki, mənəm Nəsimi. Siz bunlardan danışarkən gözümün önündə həmin epizod canlandı. Ola bilərmi ki, həmin "Ağrımaz"ı, "Etdilər"i məhz özünü Nəsiminin şagirdi sayanlar ustadlarına ithafən elə ustadlarının adı-təxəllüsü ilə yazıblar?**

- Şərqdə çox nadir hadisədir ki, kimisə edam edib dərisini soysunlar, sonra əzalarının hər hissəsini müxtəlif yerlərə göndərsinlər. Nəsiminin edamı, həqiqətən, faciəli olub. Ona görə də çoxları onun yolu ilə getdilər, davamçısı oldular. Bəziləri ona bəslədikləri sonsuz məhəbbət üzündən, bəziləri isə şöhrətlənmək üçün "Nəsimi" təxəllüsünü götürdülər. Onlardan biri XVII əsrdə yaşamış Qul Nəsimidir. Yuxarıda da qeyd etdiyim kimi, Cahangir Qəhrəmanov şübhələndiyi üçün bəzi şeirləri ayrıca bölmədə vermişdi. O da yazır ki, "Ağrımaz" Nəsiminin ola bilməz. Yəni

davamı səh. 9

# MÖHSÜN NAĞISOYLU: NƏSİMİ ƏSƏRLƏRİNDƏ QURANA ƏN ÇOX MÜRACİƏT EDƏN ŞAİRLƏRDƏN OLUB, ONU NECƏ DİNSİZ SAYMAQ OLAR?

## *AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoylunun "Cəmiyyət və Din" qəzetinə müsahibəsi*

əvvəli səh. 8

bunu təkcə mən yox, o dövrün görkəmli Nəsimişünasları da deyiblər. Baxın, məsələn, yazır:

*Əhli-iman usləri ol dəmdə inkar etdilər*
*Çün Hüseyniyi Hələb şəhrində bər-dar etdilər.*
*Qazilər fitva verib hər sözə batil dedilər,*
*Küfri tərk edib imanə gəlməyə ar etdilər.*
*Seyyidə zülm eyləyib cövr ilə həqqı basdılar,*
*Əhsəni-təqvimi gör kim, necə inkar etdilər.*
*Biliyib bıçaqların çünki teminə qoydular,*
*Sağ ikən mən aşiqi gör necə bimar etdilər.*
*Həq mənə söylə dedi, əmr etdi, mən də söylədim,*
*Sözümü dastan edib aləmdə təkrar etdilər.*
*Üzdülər, çıxardılar çün bir Hüseyninin tənin,*
*Yas tutub göydə mələklər cümləsi zar etdilər.*
*Ey Nəsimi, vasil oldun xaliqin rəhmətinə,*
*Cənnətin-əlayi buldun, yerin gülzar etdilər.*

Bir müəllif bir şeirdə 3 təxəllüsünü – "Hüseyni", "Seyyid" və "Nəsimi" - işlədə bilməz axı. Açıq-aşkar görünür ki, müəllif Nəsimi deyil, başqalarıdır. Görürsünüz, Cahangir müəllim də bu şeirin əvvəlində yazır ki, "bu tipli şeirlər Nəsiminin deyil, "Nəsimi" təxəllüsü ilə yazan başqa şairlərindir". Həqiqət gec-tez

> ***Nəinki Nəsiminin, bütün klassiklərimizin əsərlərini dərindən mənimsəmək üçün ərəb, fars və qədim türk dillərini, təsəvvüfü, poetikanı, ilahiyyatı, Quranı, sufiliyi, hürufiliyi, hədisləri, fiqh elmini, fəlsəfəni bilmək lazımdır.***

üzə çıxır. Hesab edirəm ki, yeni əldə olunan əlyazmalar həm şairin əsərlərinin akademik nəşrini hazırlamaq, həm də elmi-tənqidi mətnini ortaya qoymaq üçün əhəmiyyətli qaynaqlardır. Çünki bir şairin əsərlərinin həqiqi mətni ortaya qoyulmadan onun haqqında dəqiq fikir söyləmək çətin olar. Bu, mətnşünaslığın əsas meyarlarından biridir.

**- Belə bir fikir var ki, Nəsimini anlamaq üçün İslamı, Quranı, hədisləri də bilmək lazımdır. Çünki, sizin də dediyiniz kimi, onun əsərlərindəki sözlərin həm birbaşa, həm də sufiyanə mənası var.**

- Tamamilə haqlısınız. Nəinki Nəsiminin, bütün klassiklərimizin əsərlərini dərindən mənimsəmək üçün ərəb, fars və qədim türk dillərini, təsəvvüfü, poetikanı, ilahiyyatı, Quranı, sufiliyi, hürufiliyi, hədisləri, fiqh elmini, fəlsəfəni bilmək lazımdır. Təəssüf ki, çoxu bilmir. Məsələn, Nəsiminin, Füzulinin şeirlərində "dilbər", "canan" sözlərindən istifadə edilir. Sadaladığımız elmləri bilməyən gənc araşdırmaçı elə biləcək ki, bu sözləri sevgili mənasında işlədib. Amma təsəvvüf ədəbiyyatında "dilbər" də, "canan" da bir çox hallarda Allah mənasındadır.

**- Daha bir polemika mövzusu "Sığmazam" qəzəlində Nəsiminin "ikən", yoxsa "iki" yazmasıdır. Səhv etmirəmsə, "ikən" versiyasını mərhum şairimiz Bəxtiyar Vahabzadə irəli sürmüşdü, ancaq dəstək tapmadı. Siz necə düşünürsünüz bu məsələ barəsində?**

- Nəsimi divanının iki əlyazmasını şəxsən görmüşəm və onların üzərində işləmişəm, imla xüsusiyyətləri haqqında məqalə yazmışam. Hər iki əlyazmada o ifadə "iki"dir və "ikən" variantının olmasını əlyazmada heç kim qeyd etmir. Əslində, "ikən" ola bilməz. Niyə "iki" olmalıdır? Çünki bu qəzəl başdan-sonadək ikilik üzərində qurulub. Baxın, "ərşlə fərşi kafi nun" - ərş və fərş, yaxud "tir mənəm, kaman mənəm" – tir və kaman, "pir mənəm, cavan mənəm" – pir və cavan və sair. Şair "Məndə sığar iki cahan" dedikdə həm ruhu, həm də maddi aləmi nəzərdə tutur. Hətta belə bir fikir var ki, "mən" sözünün burada iki mənası var. Birincisi, özü, ikincisi isə Allah mənasındadır. Çünki Allahın adından deyir ki, məndə sığar iki cahan, mən bu cahana sığmazam. İkinci "mən", yəni Allah-Təala bu cahana sığmır. "Gövhəri-laməkan mənəm, kövnü-məkanə sığmazam" –

> ***Şair "Məndə sığar iki cahan" dedikdə həm ruhu, həm də maddi aləmi nəzərdə tutur. Hətta belə bir fikir var ki, "mən" sözünün burada iki mənası var. Birincisi, özü, ikincisi isə Allah mənasındadır.***

misrasındakı gövhəri-laməkan, yəni məkansız gövhər yalnız Allah ola bilər. Sonda isə deyir ki,

*Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,*
*Bundan uludur ayətim, ayətü-şanə sığmazam.*

Çox güman ki, Nəsimi bu qəzəlini məhz Allahı nəzərdə tutaraq, Onun dilindən yazıb.

**- Ümumiyyətlə, qəzəldəki "iki cahan" məsələsində fərqli fikirlər var. Bəziləri deyir ki, iki cahandan biri insanın ana bətni, digəri isə doğulduqdan sonra yaşadığı bu dünyadır. Bəziləri isə düşünür ki, burada söhbət bu dünyadan və o biri dünyadan gedir…**

- Bəli, belə düşünənlər də var. Ancaq mənim fikrimcə, şair ruh ilə cismi nəzərdə tutur və deyir ki, məndə həm ruhum, həm də cismim sığır, amma mən bu dünyaya sığmıram.

**- Müsahibələrinizin birində qeyd etmişdiniz ki, Nəsimi əvvəlcə sufi alimi olub və sonradan hürufiliyə keçib.**

- Bəli. Nəsimi əvvəlcə ruhani alim olub. Hətta onun Quranın təfsiri ilə bağlı kiçik kitabı da var. Sonradan təsəvvüfə meyil edib, çünki təsəvvüf o dövrdə geniş yayılmışdı. Onun "Hüseyni" təxəllüsünü seçməsi ilə bağlı iki fikir var. Birinci fikir belədir ki, Nəsimi Hüseyn Mənsur Həllacı çox sevib, əsərlərində onun adını dəfələrlə çəkib və onun adını özünə təxəllüs götürüb. Çünki bilirsiniz ki, Mənsur Həllac da əqidəsi yolunda dar ağacına çəkilib. Yeri gəlmişkən, "ənəlhəqq"i ilk dəfə deyən də elə Həllac Mənsur olub. Son dövrlərdə isə belə bir fikir irəli sürüldü ki, Nəsiminin İmam Hüseynə sonsuz məhəbbəti olub deyə "Hüseyni" təxəllüsünü götürüb. Çünki İmam Hüseyn də əqidəsi yolunda şəhid olub. Yəni hürufilik meydana çıxana qədər Nəsimi sufi olub. Nəimi ilə tanış olduqdan sonra isə təxəllüsünü dəyişib. Nəsiminin tuyuğu var: "Adımı həqdən Nəsimi yazərəm". Yəni bu adı ona həqq verib – Nəimini nəzərdə tutur.

**- Hürufiliyi bir çoxu siyasi cərəyan kimi qəbul edir. Bilirəm ki, siz də bu fikri dəstəkləyirsiniz və iddia edirsiniz ki, Nəsimi dini deyil, siyasi baxışlarına görə edam edilib.**

- Nəsimi hürufiliyin ən böyük təbliğatçısı olub. Qorxmurdu, çəkinmirdi, deyirdi ki, başımı top eyləyib çıxmışam meydana. Yəni məni vursalar da, əzsələr də, qorxum yoxdur. Hürufilik siyasi cərəyan idi və hürufilər istəyirdilər ki, öz dünyagörüşlərini, baxışlarını Əmir Teymura qəbul etdirsinlər. Əmir Teymur isə qəbul etmədi və Nəimini öldürtdü. Nəiminin tərəfdarları təqib olunduqları üçün əvvəlcə Anadoluya getdilər, ancaq burada onları qəbul etmədilər və Hələbə üz tutdular. Hələbdə onları müdafiə edənlər var idi. Xüsusilə də Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqi onları müdafiə edirdi. Artıq sübuta yetirilib ki, Nəsimini öldürən din xadimləri olmayıb. Din xadimləri onun edam edilməsi üçün dəlil-sübut tapa bilməyiblər. Ona görə də Misir sultanı Şeyx əl-Müəyyədin - yeri gəlmişkən, məmlük idi – göstərişi ilə edam edildi. Tamamilə siyasi məsələ idi. Çünki hürufilərin nüfuzu getdikcə artırdı. Üstəlik, bəzi kiçik hakimlər Nəsiminin fikirlərini qəbul etməyə başlamışdılar. Ona görə də onları qorxutmaq üçün şairin qolunun birini bir hakimə, digərini başqa hakimə göndərdilər. Bundan sonra həmin hakimlər qorxduqları üçün Şeyx əl-Müəyyədin tabeliyinə keçirlər.

**- Sovet dövründə Nəsimini məhz "ənəlhəqq" ifadəsinə görə ateist kimi təqdim edirdilər. Təəssüf ki, bu tendensiya bu gün də müşahidə edilir. İstərdim ki, dahi şairin yaradıcılığına yaxından bələd olan bir alim kimi sizin də fikrinizi öyrənim. Nə idi Nəsiminin dini inancı, baxışları?**

- Qeyd etdim, o ifadəni ilk dəfə söyləyən Mənsur Həllac olub. Lüğəvi mənası "mən Həqqəm", yəni "mən Allaham" deməkdir. Ancaq kamil insan özünü dərk etdikdə deyir ki, mən yoxam, məndə hər nə varsa, hamısı Allahın əlamətidir, Allahın təzahürüdür, Allahın təcəllisidir. Əslində, o sözləri dilə gətirmək lazım deyildi, çünki onu hamı eyni cür başa düşmürdü. Ona görə Mənsur Həllacı öldürdülər. Bu sözlərə görə Nəsimini dinsiz saymaq mümkün deyil. Onu necə dinsiz hesab

> ***Hürufilər yeni dini-ideoloji qurum yaratmaq istəyirdilər və Şah İsmayıl Xətai bu arzunu reallaşdırdı. Xətai ilə Nəsimini bağlayan ideoloji bağlar çoxdur.***

etmək olar ki, əsərlərində Qurani-Kərimə ən çox müraciət edən şairlərdən biri olub? Hətta onu Quran şairi hesab edirlər. Necə ki Mövlana Cəlaləddin Ruminin "Məsnəvi"sini "farsca Quran" sayırlar. Nəsimi dünyagörüşünə görə böyük İslam mütəfəkkiridir, alimdir. Burda başqa söhbət ola bilməz. Ancaq hürufilikdə İslam ehkamlarından kənara çıxmalar var idi. Bu da həqiqətdir. Məsələn, İslamın şərtləri var: Allaha, peyğəmbərlərə inanmaq, namaz qılmaq, oruc tutmaq, Həccə getmək və s. Hürufilər isə deyirdilər ki, insanın üzü elə Kəbədir. Nəimi də, Nəsimi də açıq-aşkar deyirdi bunu. Onlar hesab edirdilər ki, insanın üzündə Allahın əlamətləri var.

**- Deyirdilər ki, göz, qaş, burun – hər biri bir hərfdir.**

- Bəli. Buna görə Nəimiyə açıq-aşkar sitayiş edirdilər.

**- Hətta bəzi mənbələrdə göstərilir ki, hürufilər Nəimini İmam Mehdi kimi qəbul edirdilər.**

- Bəli, mənbələrdə belə məlumatlar var.

**- Nəsiminin şeirlərində buna eyhamlar varmı?**

- Bəli. Məsələn, onun bir "Söz" qəzəli var. Orda İsa, Adəm, Məhəmməd peyğəmbərlərin və İmam Mehdinin adını çəkir, sonra isə "Fəzli-qeybdan" ifadəsi yazır. Yəni qeybdən xəbər verən, qeybi bilən Fəzl. Yaxud deyirlər, Nəimi qəribə yuxular görürmüş və bir yuxusunda ona göstəriş verilir ki, artıq zühur etməli, özünü göstərməlidir. O da deyir ki, peyğəmbərlik dövrü keçdi, imamlıq dövrü keçdi, indi yeni dövr başlayır. Özünü yeni dövrün böyük şəxsiyyəti kimi təqdim edirdi. Özünə Allah deyə bilməzdi, qorxurdu. Ancaq təlimini yaymaq üçün siyasi dəstək axtarırdı. Buna görə Əmir Teymurla yaxınlıq

> ***Hürufilik siyasi cərəyan idi və hürufilər istəyirdilər ki, öz dünyagörüşlərini, baxışlarını Əmir Teymura qəbul etdirsinlər . Əmir Teymur isə qəbul etmədi və Nəimini öldürtdü. ...Hürufilikdə İslam ehkamlarından kənara çıxmalar var idi.***

etmək istədilər, ancaq o qəbul etmədi. Hürufilər yeni dini-ideoloji qurum yaratmaq istəyirdilər və Şah İsmayıl Xətai bu arzunu reallaşdırdı. Xətai ilə Nəsimini bağlayan ideoloji bağlar çoxdur. Xətainin onun haqqında nəzirələri var, onun fikirlərini qəbul və təbliğ edib.

**Müsahibəni apardı: Saleh Arslan**

# ƏHMƏD BƏY AĞAOĞLUNUN GÖZÜ İLƏ: İSLAM DÜNYASINDA QADINA MÜNASİBƏT

Azərbaycan xalqının milli varlığını qoruyub saxlamaq uğrunda mübarizəyə başladığı XIX əsrin sonu-XX əsrin əvvəllərində maarifçi ziyalılarımız böyük xidmətlər göstərmişlər. Onların arasında fikirləri günümüzdə də öz aktuallığını qoruyub saxlayan Əhməd bəy Ağaoğlunun adı şükranla çəkilməlidir. Bu görkəmli ziyalımız ədəbi, publisistik, ictimai-siyasi fəaliyyəti ilə təkcə Azərbaycanın deyil, bütövlükdə türk dünyasının mədəni, sosial və siyasi həyatında böyük rol oynamışdır. Mədəniyyət tariximizə zəngin irs bəxş etmiş Əhməd bəy Ağaoğlu həm də İslam dininin müxtəlif yönlərdən şərhinə yer verdiyi və öz dövründə əhəmiyyətli olduğu kimi günümüzdə də aktuallıq kəsb edən bir sıra əsərlərin müəllifidir.

Həmin əsərlərlə tanış olduqda görürük ki, Ə.Ağaoğlu din və cəmiyyət məsələsinə özünəməxsus münasibət göstərmişdir. Onun yanaşmasına görə, cəmiyyətin dinə təsiri dinin cəmiyyətə təsirindən az deyil, ona görə də müəllif bütün problemlərin arxasında dini məsələlərin dayanması kimi yanlış fikirləri təkzib etmişdir. O, orta əsrlərdə Qərb dünyasında baş verən ziddiyyətlərin Xristianlıqla birbaşa əlaqəsi olmadığı kimi, İslam dininin də müsəlman cəmiyyətindəki problemlərin səbəbi kimi qiymətləndirilməsinin doğru olmadığını vurğulamışdır.

Əhməd bəy Fransada Sorbonna Universitetinin tarix, Şərq dinləri və məzhəbləri şöbələrində oxumuş (1891-1892), məşhur şərqşünaslar Emest Renan və Ceyms Dannsteterin Şərq dinləri və məzhəblərinə dair məruzələrini dinləmiş, "Jumal de debat", "Revü Veen", "Noyve Revü" kimi fransız mətbu orqanlarında ilk yazılarını nəşr etdirmişdir. İslam dini haqqında yeni, orijinal fikirlərə sahib olan ədib onun cəmiyyətin inkişafını şərtləndirən, humanizm və tolerantlıq təlqin edən müqəddəs ruhi-mənəvi dəyərlər sistemi olduğunu elmi dəlillərlə, tarixi-müqayisəli üsullarla araşdırmışdır.

Avropada təhsil almasına, Qərb ədəbiyyatı, tarixi, fəlsəfəsi, mədəniyyəti ilə yaxından tanış olmasına, dünyagörüşünün formalaşma prosesinin məsul bir dövründə xristian əqidəli mütəfəkkirlərin əhatəsində yaşamasına baxmayaraq, Əhməd bəydə İslam dininə, onun Peyğəmbərinə və ailə üzvlərinə (Əhli-beytə), Qurana dərin inam və etiqad var idi. Görkəmli mütəfəkkirimiz İslama xüsusi hörmət bəsləyir, onun bəşər tarixində, xüsusən bədəvi ərəblərin həyatında, məişətində oynadığı mütərəqqi rolu yüksək qiymətləndirirdi.



1892-ci ildə "Şiə dinində məzdəki inancları", 1900-cü ildə "İslama görə və müsəlmanlıqda qadın", 1902-ci ildə "İslam, Axund və Hatifülqeyb" əsərlərini, həmçinin sırf İslama aid çoxsaylı məqalələri çap etdirməklə bu dini təhriflərdən və qərəzli münasibətlərdən qorumağa çalışmışdır. 1892-ci ildə şərqşünasların Londonda keçirilən konqresində "Şiə məzhəbinin mənbələri" mövzusunda müvəffəqiyyətlə məruzə etmiş, həmin məruzə Kembric Universitetinin vəsaiti hesabına bir neçə dəfə çap olunmuşdur. O, "Panislamizm, onun səciyyəsi və istiqamətləri", "İslamın mənşəyi və onun Xristianlığa və Yəhudiliyə münasibəti", "Ricəti-İslam" kimi onlarla məqaləsində özündən əvvəlki Azərbaycan maarifçi ziyalılarının İslamın müqəddəratı barədə açdıqları mübahisəni yenidən canlandırmışdır. Belə ki, əksəriyyəti polemik üslubda yazılmış bu əsərlərdə o, Qərbin və Rusiyanın antiislam meyillərinə qarşı çıxmış, Məhəmməd dini və şəriətini, İslamın əsaslarını müdafiə edərək qətiyyətlə demişdir ki, müsəlmanların dirçəlməsi və tərəqqisi onlar arasında "yeganə fəal qüvvə olan din vasitəsilə olmalıdır".

Əsərlərində və çıxışlarında qadın azadlığı ideyalarını da yer verən mütəfəkkir Azərbaycan ziyalıları arasında qadına bərabər hüquqların verilməsinə çağıran ilk şəxslərdən olmuşdur. Təsadüfi deyil ki, Əhməd bəy qadınların cahilliyini və istifadə olunan əlifbanı müsəlman dünyasının iki əsas düşməni və sağalmaz yarası sayırdı. Bu baxımdan o, cəmiyyətin formalaşması və inkişafında qadının əhəmiyyətli roluna diqqət çəkmişdir. Onun "İslama görə və müsəlmanlıqda qadın" adlı əsəri birbaşa bu problemə həsr olunmuşdur. Əsərdə İslam dinindən öncə və onun meydana gəlməsindən başlayaraq öz dövrünə qədər qadının rolunu təhlil etmiş, İslam dinində qadının yeri, ona verilmiş haqları araşdırmış və yeri gəldikcə Qərb dünyası ilə müqayisələr aparmışdır. Məqalədə müəllifin daha çox təəssüfünə səbəb olan isə müsəlman aləmində bu dözülməz vəziyyəti aradan qaldırmaq üçün heç bir etirazın olmaması, bu sahədə islahatlar keçirilməsinə təşəbbüs göstərilməməsidir.

Əsərdə müsəlman qadının cahil qalmasının günahını Məhəmməd peyğəmbərdə (s) və ümumiyyətlə, İslam ehkamlarında görən Qərb ideoloqlarına da tutarlı dəlillərlə cavab verilmişdir. Konkret misallarla göstərilmişdir ki, İslamaqədərki dövrdə Ərəbistanda qadınlar hüquqsuz idilər. Qeyd edilmişdir ki, İslama qədər bir çox məsələdə hüquqsuz olan qadınlara İslam dini məişət, ailə və nikah məsələlərində geniş hüquqlar vermişdir. Ə.Ağaoğlunun fikrincə, İslamda qadının əmlaka sahib olması, eyni zamanda zorakı evliliyin əleyhinə çıxılması çox mütərəqqi yanaşmadır.

Məqalədə Əhməd bəy Ağaoğlu qadınların hüquq və azadlığı ilə bağlı cəsarətli fikirlər irəli sürməklə yanaşı, müsəlman cəmiyyətinin intibahı üçün zəruri olan mühüm problemləri də qeyd etmişdir. Bu problemlərin içərisində bir çox müsəlman din xadiminin dünyəvi elmlərin yayılmasına qarşı çıxmasına xüsusi diqqət yetirmişdir.

Gördüyümüz kimi, Əhməd bəy Ağaoğlu bizə cəhalətdən uzaq olan İslam anlayışını təqdim edir və problemləri aydın şəkildə göstərir. Hansı ki, həmin problemlərin bəziləri hələ də öz həllini tapmayıb. Elə buna görə də, Ə.Ağaoğlunun İslamda qadın məsələsi ilə bağlı düşüncələri və irəli sürdüyü reformist yanaşma müasir cəmiyyətlərin bugünkü xoş olmayan vəziyyəti fonunda çox ibrətamizdir.

**Hazırladı: Ramil HİKMƏT**

# ALLAHŞÜKÜR MƏSCİDİ DÖVLƏT QEYDİYYATINA ALINIB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, Şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncama uyğun olaraq, dekabrın 4-də Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi tərəfindən Naxçıvan Muxtar Respublikasında yubiley mərasimi keçirilib. Yubiley tədbirləri çərçivəsində Ordubad rayonunun Dırnıs kəndində yeni inşa olunmuş Allahşükür məscidinin açılış mərasimi baş tutub.

Məscidə Naxçıvan Muxtar Respublikası Dini qurumlarla İş üzrə Dövlət Agentliyi tərəfindən dini icmaların dövlət qeydiyyatı haqqında 19 saylı şəhadətnaməsi verilib. Sənəd Qafqaz Müsəlmanları İdarəsinin sədrinə təqdim olunub.

Məscid "Allahşükür məscidi" dini icmasının dini tələbatlarının ödənilməsinə xidmət edəcək. Naxçıvan Muxtar Respublikasının Tarix və mədəniyyət abidələrinin reyestrində 4/308 saylı qeydiyyat kartında istifadədə olan və ölkə miqyasında mühafizə olunan memarlıq abidəsi kimi göstərilən məscidin memarlıq kompozisiyası, qısa təsviri əksini tapır. Göstərilir ki, Ordubad rayonunun Dırnıs kəndinin gözəl mənzərəyə malik hündür ərazisində yerləşən məscid zal, zalın arxa tərəfində minarə, sağ, sol və arxa tərəflərdə köməkçi otaqlardan ibarətdir. 15x14 metr ölçülərdə olan məscid binasının 19,6 metr hündürlüyündə və diametri 2 metr olan dəmir-beton minarəsi var. Məscidin ərazisinin hündür konusvarı təpəlik olması onun bədii görkəminə bir monumentallıq gətirir.

Məscidin layihələndirilməsi zamanı əsasən milli memarlıq elementlərindən istifadə edilərək müasirlik ön plana çəkilib. Binanın qərb fasadında milli memarlığımızın vacib elementi olan baş portal yerləşdirilib və portal Möminə Xatun türbəsinin özünəməxsus memarlıq tağı və ornamentləri ilə bəzədilib.

# AZƏRBAYCANIN ÜÇ TARİXİ MƏKANI İSESKO-NUN İSLAM İRSİ SİYAHISINA SALINIB

Mərakeş Krallığının paytaxtı ər-Rabatda keçirilmiş İslam Dünyası İrs Komitəsinin növbədənkənar iclasının yekun sənədinə əsasən, ölkəmizin İçərişəhər (Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə), Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) və Qobustan qayaüstü rəsmləri bu siyahıya salınıb. Ümumiyyətlə, 117 tarixi və mədəniyyət obyekti İslam Dünyası İrs Siyahısına, Yəməndə yerləşən 3 abidə isə İslam ölkələrində dağılmaq təhlükəsi olan abidələr siyahısına salınıb.

Qeyd edək ki, İSESKO-nun irs və mədəniyyətlə bağlı yeni strategiyası, həmçinin İslam dünyasında mədəni və tarixi irsin qeydə alınması və qorunması sahəsində fəaliyyətin gücləndirilməsini hədəfləyir.

## İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2015

# KOTONU

Benin Respublikası şimalda Burkina Faso və Niger, şərqdə Nigeriya, qərbdə Toqo ilə həmsərhəd olan Qərbi Afrika dövlətidir. Benin dövlətinin tarixi XVII əsrə qədər uzanır. Əvvəllər Daqomeya adlanan bu dövlət 1893-cü ildən Fransanın müstəmləkəsinə çevrilib. 1 avqust 1960-cı ildə Daqomeya Respublikası müstəqillik əldə edib. 30 noyabr 1975-ci ildən isə ölkə Benin Respublikası adlandırılıb.

112,622 km² ərazisi olan dövlətin kiçik olmasına baxmayaraq, 11.9 milyon əhalisi var və əhali sayına görə dünyada 77-ci yerdədir. Paytaxtı 234000-dən artıq əhalisi olan Porto-Novo şəhəri olasa da, Beninin əsas şəhəri, hökumətin də yerləşdiyi Kotonudur. Burada 818000 nəfər yaşayır və ölkənin ən böyük şəhəridir. Ölkənin digər tanınmış şəhərləri Parako, Dcoko, Bohicondur. Benin əhalisinin orta yaş həddi 59-dur. Ölkədə 42 fərqli Afrika etnik qrupu yaşayır. Əsas etnik qrupları yoruba, dendi, bariba, fula, betammaribe, somba, fon, aja, xueda, mina, həmçinin daqome, busa və digərləridir. Beninin rəsmi dili fransız dilidir. Bununla yanaşı, fon və yoruba dillərindən də geniş istifadə olunur. Dövlətin əsas pul vahidi isə Qərbi Afrika frankıdır.

Benin Afrikanın ən böyük pambıq istehsalçılarından biridir və bu sahə ölkə iqtisadiyyatında ÜDM-nin 40%-ni, ixracatın isə 80%-ni təşkil edir. Beninin ixrac etdiyi digər kənd təsərrüfatı məhsulları isə kakao, qarğıdalı, lobya, düyü, qoz-fındıq və müxtəlif kök yumrularıdır. Bundan başqa, toxuculuq da ölkənin inkişaf etmiş sahələrindən hesab olunur.

Benin əhalisinin dini etiqatı müxtəlifdir. Burada İslam, Xristianlıq, Qərbi Afrika dinləri (xüsusilə vudu) olduqca populyardır. Statistik məlumatlara görə, 1962-ci ildə ölkə müsəlmanları əhalinin 7%-ni, 1992-ci ildə 20%-ni, 2000-ci ildə isə 30%-45%-ni təşkil etmişdir (mənbə: İSESKO). Beninin İslamla tanışlığı Mali və Nigeriyadan gələn marabutlar (Qərbi Afrikada müsəlman dini liderlərə verilən addır – T.V.) sayəsində olmuş və bu din əhali tərəfindən rəğbətlə qarşılanaraq ölkə ərazisinə yayılmışdır. Buradakı müsəlmanların əksəriyyəti peul, naqo, kotokoli, dendi, ani, hausa və yoruba etnik qruplarına mənsubdur. Benin müsəlmanlarının çoxu İslamın sünni qolunun maliki məzhəbinə mənsubdur. Şiə qoluna mənsub olanlar isə daha çox Yaxın Şərqdən gələn mühacirlərdir. Ölkədəki müsəlmanların



ən sıx məskunlaşdıqları şəhər Kotonudur. O, Beninin paytaxtı olmasa da, ən məşhur şəhəridir - dövlət və hökumət binaları burada yerləşir. Beninin cənubunda, Atlantik okeanın sahilində yerləşən bu şəhərin adının mənası fon dilində “ölüm çayı sahilində” deməkdir. Güman ki, bu ad şəhər əhalisinin, əsasən, balıqçılıqla məşğul olmasından irəli gəlir. Kotonu 2015-ci ildə İslam mədəniyyəti paytaxtı seçilmişdir.

Burada onlarla məscid fəaliyyət göstərir və onların sayı ilbəil artmaqdadır. Cümə namazları 12 məsciddə qılınır. Onların ən böyüyü, 30 min nəfərlik tutumu olan Zonqo rayonunda yerləşən Kotonu Böyük məscididir. Məscidin inşasına 1 milyon funt-sterlinq (təxminən 2 milyon ABŞ dolları) xərclənib. Digər məscidlərdən “Mosque Centrale de Cotonou Jonquet”, “Cadjehoun Central Mosque”, “Grande Mosquee de Zongo”, “Centre Islamique de Cotonou”, “Mission Jamaat Islamique Ahmadiyya Cotonou”, “Mosquee Batito”, “Mosquee Ogogo”, “Mosquee du Rond-Point Gbegamey”, “Mosquee Suru Lere”, “Mosquee VODJE”, “Mosquee kadjola de Djidje”, “Centre Chabab Islamique”, “Mosquee Centrale Nouroul-Islam de Mondokomey”, “Mosquee Ayelawadje”, “Mosquee Agblangandan”, “Mosquee Ireakari” (adlar fransızca orijinalda verilib – T.V.) kimi məscidləri göstərmək olar.

Benində, xüsusilə Kotonuda müxtəlif din mənsubları bir arada dinc yanaşı yaşayırlar. Kafedral kilsə ilə Kotonu Mərkəzi məscidinin timsalında iki dinə məxsus ibadət evinin yaxın ərazilərdə yerləşməsi bunun əyani sübutlarındandır.

Kotonu kilsəsi kimi tanınan Notr-Dam Mizerikord kilsəsi katolik ibadət yeridir. Kilsə tünd qırmızı və ağ zolaqlı görünüşünə görə seçilir. Onun qülləsi əsas binanın arxasında, sol tərəfində yerləşir. Roma Katolik Kiləsinin Kotonu arxiyepiskopu bu kilsədə oturur. Yeparxiyanın əsası Nigeriyanın Benin sahili Apostol Vikariatlığının Dahomeya Apostol Prefekturası kimi 26 iyun 1883-cü ildə qoyulmuşdur. 14 sentyabr 1995-ci ildə isə o, Kotonu Arxiyepiskopluğu adını almışdır. Benindəki xristianların yarıdan çoxu katolikdir.

Benində İslam və Xristianlıqdan sonra ən çox yayılmış Qərbi Afrika dini vududur. Onu fəlsəfə, bədən, dil, bədii ifadə, ritual və terapevtik sənət də adlandırmaq olar. Afrikaya məxsus vudu ruh, möcüzə mənalarını verir. Bu din Benin körfəzinin cənubunda (Benin, Toqo, Qana və Nigeriya) yaşayan bir neçə populyasiyanın mədəni əsasını təşkil edir. Beninin qədim Ouidah şəhərində hər ilin yanvar ayında Beynəlxalq Vudu Günü qeyd edilir.

**Hazırladı: Tural VƏLİZADƏ**

## AVSTRALİYADA KATOLİKLƏR ETİRAZ EDİRLƏR



“Catholicnewsagency”-nin verdiyi xəbərə görə, avstraliyalı katolik din xadimləri tövbənin məxfiliyinin açılması barədə qanuna edilən dəyişikliklərdən narazıdırlar. Çünki bu hal keşişi xəbərçiliyə məcbur edir, əks halda, o, cinayətkar sayılır.

Avstraliya Katolik Yepiskopları Konfransı uşaqlara qarşı zorakılıq hallarının bildirilməsi üçün “razılaşdırılmış milli” standartları dəstəkləyib. Ancaq keşişləri tövbə əsnasında öyrəndikləri uşaq istismarı haqqında bildikləri məlumatları verməyə məcbur edən yeni qaydaları dəstəkləməyib.

Brisben arxiyepiskopu, Yepiskoplar Konfransının prezidenti Mark Koleric bu kimi tələbin qeyri-effektiv, zərərli və ədalətsiz olduğunu bildirib: “Ona görə qeyri-effektiv olacaq ki, canilər çox nadir hallarda tövbə edirlər, cinayətlərinin ifşa olunacağını bilsələr, ümumiyyətlə, tövbə etməzlər. Ona görə zərərli olacaq ki, az da olsa, bəzi hallarda günah çıxaran keşiş cinayətkarı öyüd-nəsihətlə pis yoldan döndərməyə, həyatını dəyişdirməyə nail olur, bununla bu şans əldən gedəcək. Və ona görə ədalətsiz olacaq ki, hüquqi baxımdan keşişin ittihamlardan özünü müdafiə edə bilməyəcəyi vəziyyət yaranacaq”.

Keşişlərdən kimsə yeni tələblərə əməl edərək tövbənin məxfiliyi qaydasını pozsa, böyük günah işləmiş sayılır. Çünki 1983-cü il kilsə qaydalarında deyilir ki, tövbənin məxfiliyi “toxunulmazdır” və “günah çıxaran kəsin hər hansı səbəbdən dolayı sözlə və ya başqa bir şəkildə tövbə edənə xəyanəti tamamilə qadağandır”.

Bununla belə, baş prokurorların iştirakı ilə keçirilən iclasın yekun rəsmi məlumatında deyilir ki, vətəndaşın uşaqları qorumaq öhdəliyindən boyun qaçırması və uşaqlara qarşı zorakılıqla bağlı cinayət işlərində ona məlum olan dəlilləri, faktları və şübhələri gizlətməsi yolverilməzdir.

## "İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ DİN" KİTABI NƏŞR OLUNUB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyevanın “İnformasiya təhlükəsizliyi və din” kitabı nəşr olunub. Kitabda müasir qloballaşma şəraitində prioritet müzakirə mövzusuna çevrilən informasiya təhlükəsizliyi məsələsi müxtəlif cəhətlərdən təhlil olunub.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və qlobal informasiya cəmiyyətinin formalaşması dövlətlərin informasiya təhlükəsizliyinin müasir beynəlxalq münasibətlərin əsas problemlərindən birinə çevrilməsinə səbəb olub. Ölkəmizin milli təhlükəsizliyinin mühüm istiqaməti olan informasiya təhlükəsizliyi bütün cəmiyyəti əhatə edən vacib məsələlərdən biridir. Y.Əliyeva bu problem kontekstində kitabda internet və cəmiyyətin informasiya təhlükəsizliyinin sosial aspektlərini, informasiya təhlükəsizliyini təmin edən müdafiə mexanizmlərini şərh edib.

Nəşrdə mühüm ictimai fikir formalarından olan dinin cəmiyyətdəki roluna toxunan müəllif din faktorunun informasiya təhlükəsizliyi sisteminə təsiri məsələlərindən danışıb.

Azərbaycanda informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasına da yer verilən kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən nəşr edilib.

# ORTA ƏSRLƏRİN ƏN DƏHŞƏTLİ AVANTÜRASI: UŞAQLARIN SƏLİB YÜRÜŞÜ

Qərbi Avropa dövlətlərinin xristian dini üçün müqəddəs sayılan torpaqları (indiki Fələstin və Suriya ərazilərini) ələ keçirmək naminə XI-XIII əsrlərdə Yaxın Şərq istiqamətində həyata keçirdikləri irimiqyaslı hərbi yürüşlər tarixə "səlib yürüşləri" kimi düşmüşdür. "Səlib" ərəb dilindən tərcümədə "xaç" deməkdir. Bu yürüşün iştirakçıları fərqlənmək üçün öz geyimlərinə qırmızı parçadan kəsilmiş xaç simvolu tikdiyindən hərbi əməliyyatlar da səlib və ya xaç yürüşləri adını almışdır. Tarixdə səkkiz iri səlib yürüşü olmuşdur.



Səlib yürüşləri müsəlmanların tabeçiliyində olan torpaqları, xüsusilə, İsa Məsihin məzarı yerləşən Yerusəlimi (Qüds) "kafirlər"dən xilas etmək pərdəsi altında həyata keçirilirdi. Əslində isə, bu hərbi yürüşlərin səbəblərini o zamankı siyasi-iqtisadi, sosial-mədəni şəraitdə axtarmaq lazımdır. Həmin vaxt Avropadakı bütün torpaqlar artıq çoxdan bölüşdürülmüşdü. Odur ki, mərkəzi hakimiyyətdən uzaqlaşmağa, müstəqil olmağa can atan Avropa feodalları özləri üçün geniş ərazilər ələ keçirmək istəyirdilər.

Belə səlib yürüşlərində uşaqlardan da istifadə edilmişdir. Çünki Roma papası əvvəlki xaç yürüşlərinin uğursuz olmasının səbəbi kimi yürüşlərdə iştirak edənlərin günaha batmasını göstərir, uğur qazanmaq üçün heç bir günah işləməyən uşaqlardan istifadə etməyin vacibliyini vurğulayırdı.

### "Beşikdən-qəbrə" və ya orta əsrlərin əzab dolu uşaqlıq illəri

Orta əsrlərdə "uşaq" anlayışı mövcud deyildi. Aristokratlar övladlarını qohumlarına və ya dostlarına verir, uşaqlar çox çətin şəraitdə təhsil alır, sonda da əsgər və ya keşiş olurdular. Qız uşaqları tibb bacısı tərəfindən böyüdülürdü. Onların da taleyi oğlan uşaqlarından çox da fərqlənmirdi. 14 yaşına qədər ərə verilən qızlar, böyük ehtimalla ikisinin sağ qalacağı on uşaq dünyaya gətirməyə borclu idilər. Kəndli ailəsində uşaq yeriməyə başladıqdan dərhal sonra digər ailə üzvləri ilə birlikdə tarlada işləməyə başlayırdı. Sənətkar ailələrində isə uşaqlar valideynlərinin sənətini öyrənməyə borclu idilər. Düzdür, uşaqlar öz dostları ilə oynayır, vaxt keçirirdi, amma həyat qısa və sərt idi, buna görə də erkən yaşlarında zəhmətə alışırdılar. Kilsəyə görə, uşaqlar yetkinlik dövrünə yeddi yaşında – yaxşını pisdən ayırd edə biləcək və katolik doqmalarını qavrayacaq yaşda qədəm qoyurdu. Yetkinlik dövrü qızlarda 12, oğlanlarda isə 14 yaşında başa çatırdı.

Həmin dövrdə ölüm adi hal kimi qəbul edilirdi. Doğuş nisbəti yüksək idi, lakin uşaqların əksəriyyəti körpəlikdə ölürdülər. Nadir hallarda uşaqlar 16 yaşına qədər sağ qalır və bu hadisə böyüklərdə uşaqların həyatda öz istedadını sübut etməsi barədə rəy formalaşdırırdı.

### Alman uşaqların səlib yürüşü

Alman uşaqların səlib yürüşünü Nikolas adlı çoban təşkil etmişdir. 1212-ci ildə o, Köln şəhərinin "Üç Kral" adlanan hissəsində çıxışlar etməyə başlayır. Çıxışlarında yuxusunda bir mələk gördüyünü bildirir. O, həmin mələyin alman uşaqlarının müqəddəs torpaqları müsəlmanlardan xilas edəcəklərini, Musa peyğəmbərin başına gələn kimi dənizin aralanacağını və onların qısa yolla Qüdsə gedəcəklərini xəbər verdiyini nəql edir. Tezliklə onun ətrafına minlərlə uşaq toplaşır. Nikolas 20 min uşaqla yola çıxır. Ancaq aclıq və xəstəliklər üzündən Genuya qapılarına onlardan yalnız 7 mini çatır. Onlar nə qədər dualar etsələr də, dəniz aralanmır. Bundan sonra bir çox uşaq səfərdən ayrılaraq Genuyada qalır. Nikolas isə ümidini itirmir və bir neçə gündən sonra Piza şəhərinə gəlir. Pizada bir neçə ticarət gəmisi onları Fələstinə aparmağa razı olur, ancaq onların sonrakı taleyi barədə məlumat yoxdur. Nikolas özünə inanan daha kiçik bir dəstə ilə Romaya gəlir. Romada Papa I İnnokenti onu qəbul edir. Papa onların inanclarından çox təsirlənir, amma məntiqlə bunun qeyri-mümkün olduğunu anlayır. Onlara evə dönmələrini tapşırır və gələcəkdə Səlib yürüşlərinə çıxa biləcəklərini bildirir. Papanın tövsiyələrinə qulaq asan uşaqlar geriyə dönmək qərarı alırlar. Sağ qalan uşaqların geriyə döndükdələrinə dair hər hansı məlumat yoxdur. Amma çoxunun bu çətin addımdan imtina edərək İtaliyanın fərqli şəhər və qəsəbələrinə yerləşdiyi deyilir. Növbəti bahar uşaqların çox az bir hissəsi geriyə dönür. Onların arasında isə Nikolas yox idi.

Ailələr uşaqlarının geri dönməməyində Nikolasa "yaxşı tərbiyə verə bilməyən" atasını günahlandırırlar. Onun atası həbs olunur, məhkəmə qurulur və edam edilir.

### Kralın iradəsinə qarşı

1212-ci ilin may ayında Fransa Kralı Filip Avqust səyahətdə olarkən Parisin cənubunda Cloyes-sür-le-Loir adlı kənddə yaşayan 12 yaşlı Stefan adında çoban kralla görüşmək istəyir. Uşağın əlində krala yazılmış məktub olur. Uşağın dediyinə görə, o, qoyun otararkən İsa peyğəmbər ona görünür və bu məktubu verir. Məktubda uşaqlardan ibarət ordu yığılması və Qüdsə səfər edilməsi yazılıbmış. Kral Filip məktubu ciddi qəbul etməyərək uşağa evinə dönməyi tövsiyə edir. Buna baxmayaraq, Stefan moizələr verməyə başlayır və 1212-ci ilin iyun ayının sonuna qədər Vandomda ordu yığır. Onlar 30 min nəfərlik orduyla yola çıxırlar. Marsel şəhərinə çatanda alman qardaşlarının başına gələn kimi onlarda da dəniz ikiyə ayrılmır. Marselli iki tacir onlara Akkaya getməyə kömək edir. Amma onlardan bir daha xəbər alınmır.

18 il sonra, 1230-cu ildə Marselə gələn ortayaşlı keşişin dediklərinə görə, o vaxt iki tacirin apardığı orduda keşiş köməkçisi imiş. Yolda onların iki gəmiləri batır, 5 gəmini isə ərəb dəniz quldurları qarşılayır, sonradan məlum olur ki, iki tacir əvvəldən onlarla sövdələşibmiş. Keşiş uşaqların Əlcəzairdə, Bağdadda, İsgəndəriyyədə, Misirdə qul kimi satıldığını, özünün isə Qahirədə qul olduğunu, sonralar sahibindən azadlıq alıb Fransaya geri dönə bildiyini deyir. Bu keşiş uşaqların ailələrinə onların taleyi haqqında danışdıqdan sonra yoxa çıxmışdır.

**Hazırladı: Orxan MAŞAYEV**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İSLAM AMİLİ

Bu gün beynəlxalq arenada qloballaşma prosesi böyük əhəmiyyət kəsb edir. Beynəlmiləlləşmə prosesi olan qloballaşma, əsasən, iqtisadi və elmi sahələrə təsir göstərməsinə baxmayaraq, bu proses xalqların tarix boyu inkişaf etmiş münasibətlər əsasında təbii yaxınlaşması ilə də müşahidə olunur. Sözsüz, İslam dünyası da bu proseslərdən kənarda qala bilmir və hazırda müsəlmanlar beynəlxalq arenada qlobal irəliləyişin başlanğıcındadırlar.

İslam dünyasını və orada baş verən prosesləri dərk etmək İslamın incəlikləri ilə tanış olmadan mümkün deyil. XX əsrin ikinci yarısından bu günə qədər İslam amili dünyada aparıcı rollardan birinə çevrilmişdir. Ancaq təəssüf ki, son illər İslama olan maraq, əsasən, ekstremist qrupların fəallaşması ilə əlaqədardır. Halbuki bu dinin əsas devizi insanları sülh və əmin-amanlığa dəvətdir.

Müsəlmanlar üçün İslam yalnız ayinlər toplusundan ibarət deyil, həm də ictimai həyat qanunlarıdır. Bu gün planetimizdə 1,8 milyarddan artıq müsəlman var və onların sayı sürətlə artır. Əgər 1980-ci ildə müsəlmanlar dünya əhalisinin 18%-ni, 2000-ci ildə isə 23%-ni təşkil edirdisə, yaxın 25 il ərzində bu statistik göstəricinin 31%-ə qədər artacağı proqnozlaşdırılır. Bu isə İslam və digər sivilizasiyalar arasında mədəni, siyasi, iqtisadi və elmi dialoq məsələsini daha da aktuallaşdırır. Bu proses o qədər də asan deyil və tərəflərin tolerant fəaliyyət göstərməsini zəruri edir.

Hazırda dünyəvilik, postmodernizm, dünyanın ənənəvi və texnoloji cəmiyyətlərə bölünməsi, miqrasiya və yeni həyat şərtlərinə uyğunlaşma kimi mürəkkəb proseslərdə İslamın rolunu və yerini müəyyənləşdirmək ciddi məsələdir. Dünyanı saran qloballaşma prosesi İslamı öyrənməyin zəruriliyini kəskin bir şəkildə ortaya qoymuşdur. İslam bu dinə etiqad edən müxtəlif xalqların mədəni dəyərlərini formalaşdıran və təyin edən dindir. Buna görə də ilk növbədə, İslamın öyrənilməsi müsəlman dünyasında baş verən hadisələrin mahiyyətini anlamaqda kömək edə bilər.

Bu gün İslam dünyasının nüfuzunun artacağına dair bir çox əlamət var. Bura müsəlman ölkələrindəki demoqrafik artım, elmin (Pakistan, İran), iqtisadiyyatın (İndoneziya, Malayziya) yüksəlişi, böyük təbii ehtiyatlar və müsəlman əhalinin qeyri-müsəlman ölkələrə miqrasiyasının artması daxildir.

Bu baxımdan İslamın olduğu kimi öyrənilməsi müsəlmanların özləri üçün də zəruridir. Çünki müsəlman ölkələrinin ictimai, elmi, iqtisadi sahədəki mövcud vəziyyəti ümumilikdə ürəkaçan deyil. Üstəlik, nəzərə almaq lazımdır ki, İslam elmi araşdırmaları heç bir şəkildə qadağan etmir. Bu din öz ardıcıllarını dünyanı öyrənməyə, baş verənləri tədqiq etməyə səsləyir. Bunun bir üstün cəhəti də tarixən dinin siyasi məqsədlər üçün istifadəsinə edilən cəhdlərin qarşısının alınması və İslam dininin çox vaxt qarşıdurmanın səbəbi olması iddialarının əsassız olduğunu göstərməkdir.

**Aqil ƏLİSOY**

# MUXTAROV MƏSCİDİ: VLADİQAFQAZIN VƏ AZƏRBAYCANLI KİMLİYİNİN "VİZİT KARTI"

*Dünyada mövcud olan hər bir millət, xalq özünəməxsus xüsusiyyətlərə, dəyərlər sisteminə malikdir. Və o bu dəyərlərlə tanınır, bu dəyərlər, bir növ, onun pasportudur. Yerləşdiyi coğrafi regionun yaşatdığı bütün problemlərə, müharibələrə, işğallara baxmayaraq, bu gün irsini daşıdığımız ata-babalarımız heç vaxt humanizm, yaxşılıq, tolerantlıq kimi ən ali, bəşəri dəyərlərindən uzaq düşməyiblər, onları bizə ən dəyərli miras qoyublar. Və bu dəyərlərin hər biri zamanın gedişatında genetik kodumuzun elementinə çevrilib, bir növ, qanımıza hopub. Məhz ona görə də milli-mənəvi dəyərlərdən danışarkən onu gen yaddaşımızla assosiasiya etməyimiz heç də gəlişigözəl ifadə deyil. Bu, tariximizin hər dövrünə aid səhifələrdə görə biləcəyimiz faktdır. Paralellər aparsaq, bu gün Azərbaycan dövləti, Heydər Əliyev Fondu təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da dini ibadət ocaqları inşa, təmir və bərpa etdirir. Eynən ötən əsrin əvvəllərində olduğu kimi. Bu yazıda keçən əsrdə respublikamızın sərhədlərindən kənarda – Vladiqafqazda tikilmiş və ötən il dövlət başçısı İlham Əliyevin şəxsi yardımı ilə təmir olunmuş Murtuza Muxtarovun adını daşıyan məscid haqqında danışacaq və girişdəki düşüncənin nə qədər doğru olduğuna bir daha şahidlik edəcəyik.*

Bu ibadət evinin tikintisinin çox maraqlı tarixçəsi var. Yazıçı Manaf Süleymanov "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında bu haqda yazır: "Murtuza Muxtarov ... 1895-ci ildə dünyada ilk dəfə metal ştanqlarla zərbə qazma dəzgahını quraşdırır və bunun üçün dövlət patenti alır. O bu ixtirasına Bakı qazma sistemi adı verir. Həmin dəzgahın əvvəlkilərdən üstünlüyü çox idi. Onun bir sıra digər ixtirası da vardı. Muxtarov on doqquzuncu əsrin axırlarında Bibiheybətdə qazma avadanlığı zavodunu işə salır. Bu, Rusiyada ilk neft avadanlığı müəssisəsi idi. Zavodun yaxınlığında fəhlə və qulluqçular üçün üçmərtəbəli yaşayış binaları tikdirir; bununla da, həm işçi qüvvəsini ətrafına toplayır, həm də əlavə gəlir əldə edirdi. Muxtarov zavodun buraxdığı dəzgah və avadanlığı Rusiyaya və xarici ölkələrə satırdı. Özü də xaricdən, xüsusilə Amerikadan çoxlu maşın, cihaz, alət və avadanlıq alırdı. Hətta inqilabdan sonra da onun adına avadanlıq göndərirdilər. Təkcə Bakıda yox, Maykop və Qroznı neft mədən sahibləri ilə də müqavilə bağlayıb quyu qazırdı; zavod və mədənlərlə, konstruktor büroları ilə texniki və işgüzar əlaqələri vardı; tez-tez Şimali Qafqaza gedirdi.

Bir dəfə dəmir yolu stansiyasında görür ki, perronda çərkəzi libasda iki leytenant yerə xalça sərdi, canamaz açdılar. Pirani bir general, o da çərkəzi libasda başladı namaz qılmağa. Murtuz Muxtarov onun kim olduğu ilə maraqlanır və öyrənir ki, vladiqafqazlı tanınmış general Tuqanovdur. Tanış olur, dəvətini qəbul edib Vladiqafqaza, evlərinə qonaq gedir. Nəhayət, generalın ortancıl qızı Liza xanımla evlənib, qohum olurlar. Bakıya qayıdanbaş həmin stansiyanın restoran sahibinə deyir ki, bu gün burada nahar edənlərin hamısının xərcini mən verəcəm. Mən onları qonaq edirəm. Vladiqafqazda qoşa minarəli, qoşa eyvanlı, əzəmətli bir məscid tikdirir".

110 illik tarixə malik bu məscid bu gün Vladiqafqazın əsas simvollarından biri hesab edilir. Mənbələrdə göstərilir ki, Terek çayının sahilindəki məscid tikilənə qədər müsəlmanlar dualarını açıq havada edirdilər. Bu səbəbdən yerli müsəlmanlar üçün məscid inşası hələ XIX əsrin ortalarından gündəmdə idi. Ancaq çar Rusiyası məscidin inşasına 1900-cü ildə icazə verir. "Priazovskiy kray" qəzeti yazır ki, inşaat üçün lazım olan 80 min rublun 50 minini Murtuza Muxtarov verib. Maliyyə ayrıldıqdan sonra onunla dəfələrlə əməkdaşlıq etmiş polyak əsilli memar İosif Ploşko Şərq memarlığını tədqiq etməyə başlayır. Çünki bunadək onlarla binanın tikintisini həyata keçirmiş Ploşko dini abidələrin inşaatı sahəsində hər hansı təcrübəyə sahib deyildi. Uzun tədqiqatlardan sonra o, nümunə kimi Qahirə şəhərindəki məscidləri, xüsusilə əl-Əzhər məscidini seçir. İnşaat işləri 1908-ci ildə tamamlanır və həmin il oktyabrın 14-də məscidin açılış mərasimi keçirilir. Mərasimlə bağlı "Kaspi" qəzeti yazır ki, "14 oktyabr 1908-ci ildə - Ramazan bayramının birinci günü Vladiqafqazda, Terek çayının sol sahilində yeni məscidin açılış mərasimi keçirildi. İlk ibadət Murtuza Muxtarovla Bakıdan gələn axundun başçılığı ilə edildi".



Qeyd edək ki, qəzetin adını yazmadığı həmin axund böyük maarifçi din xadimi, qızını Hacı Zeynalabidin Tağıyevin qızlar üçün açdırdığı məktəbə qoyan Mirzə Turab Axundzadə (bəzi mənbələrdə Axund Mirzə Əbu Turab) idi. Açılış haqqında informasiya "Terskiye vedemosti" qəzetində də işıqlandırılmışdı. Bu kimi dini motivli layihələr tamamlandıqda kasıblara yardım etmək müsəlman aləmində ənənə hesab olunur. Mənbələrdə göstərilir ki, Murtuza Muxtarov məscidin açılışı münasibətilə Vladiqafqaz həbsxanasında məhbus həyatı yaşayan 800 nəfər üçün ziyafət təşkil edibmiş. Hətta bildirilir ki, Redant qəsəbəsinin inquş sakinləri Muxtarovun şəninə qəsidə yazıblar.

Məscidin ilk mollası vəzifəsinə Kazan tatarı Sadiq Radimqulov təyin edilir. Radimqulov hənəfi məzhəbindən idi. Ancaq o, xəstəliyi səbəbi ilə postundan gedir və 1908-ci ilin dekabrında onu bu vəzifədə şafei məzhəbindən olan Yusuf Murkilenski əvəzləyir. Lakin məscidə gələnlərin çoxu hənəfi idi və şafei məzhəbindən olan mollanın təyin edilməsi onları narazı salır. Çünki onlar S.Xamzinin təyin edilməsini istəyirdilər. Ancaq sünni-müsəlman ağsaqqalların toplantısında Murkilenskinin təyin edilməsi məqbul sayılır. Bununla isə məscidin tatar icması razılaşmaq istəmir, onlar məscid daxilində özlərinin ayrıca icmalarını yaratmaq iddiasını ortaya atırlar. Hətta məscidin əmlakının bölgüsü üstündə mübahisələr də baş qaldırır. Nəticədə şəhər soveti tatarların ayrıca ibadət evinə köçürülməsinə qərar verir. Bütün bu söz-söhbətlərə baxmayaraq, ovaxtkı şəhər rəhbərliyi Murtuza Muxtarova minnətdarlığını rəsmi şəkildə bildirməyi unutmur. 1909-cu il iyunun 20-də Vladiqafqazın sünni məscidlərindən məsul general-leytenant İdris Şanayev qərardad imzalayır. Sənəddə deyilir: "Bu qərardadla Vladiqafqaz şəhərinin müsəlmanları adından şəhər məscidini inşa edən bakılı tacir Murtuza Muxtarova səmimi qəlbdən minnətdarlığımızı bildiririk. Təşəkkür qismində məscidin onun adının verilməsinə və onun adının məscidin girişindəki mərmər lövhəyə həkk edilməsinə qərar verilmişdir". Qeyd edək ki, sonradan bu lövhə Diyarşünaslıq Muzeyinə təhvil verilir.

Məscidin görünüşünə gəlincə, onun divarlarına çəkilmiş çoxqatlı rəngli mala və iki bərabər üçbucaqdan ibarət ulduz daim mütəxəssislərin diqqətini cəlb edib. Çünki bu cür simvollar hələ qədim zamanlarda müxtəlif xalqlar tərəfindən istifadə edilirdi.

Muxtarov məscidi ərazinin bütün müsəlman icmasının cümə namazını qılması üçün nəzərdə tutulub. Bununla yanaşı, bu tikili uzun müddət Şimali Osetiyanın təhsil, mədəniyyət və ictimai həyatının mərkəzi olub. O, Vladiqafqaz şəhərinin "vizit kartı" və Şərq memarlığının şah əsəri olaraq qalır. Məsciddə tavana qədər olan əsas zalın hündürlüyü 15 metrdir. Kənardan baxanda isə məscid nağıllardakı qəsri xatırladır. Onun içi də çox gözəldir – Azərbaycan ustaları tərəfindən mismardan istifadə edilmədən şəbəkəylə işlənmiş 16 pəncərədən Günəş şüaları birbaşa zala daxil olur. Məsciddə İstanbulda qızıl hərflərlə yazılaraq hazırlanmış və çəkisi 25 kiloqram olan Quranın saxlanıldığı bildirilir. İbadət ocağının girişini çatma tağ bəzəyir. Girişin hər iki tərəfində bir-birinə simmetrik yerləşdirilmiş 33 metrlik minarə ucalır. Memarların fikrincə, minarələr mütənasibliyinə görə mükəmməldir. Məscidin interyeri və binanın xarici divar naxışı rəssam Frans Dolejal tərəfindən işlənilib.

1934-cü ildə Sovet hökuməti məscidin sökülməsinə qərar versə də, Bektenovun rəhbərlik etdiyi 25-ci süvari alayının müqaviməti sayəsində abidəni qoruyub saxlamaq mümkün olmuşdu. Sovetlər dövründə bura mədəniyyət evi, fəhlə klubu və Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərsə də, 1968-ci ildə binanın bərpasına başlanılmış, ondan məscid kimi istifadə olunmasına qərar verilmişdi. Bərpa işlərinə qərar verilməsinin bir səbəbi də SSRİ-yə gələn turistlərin bu tikili ilə maraqlanmaları idi. Bir il davam edən təmir işlərindən sonra məscid şəhərin nadir tarixi abidəsi kimi öz qapılarını möminlərin üzünə açmışdı.

1996-cı ildə isə məscid Şimali Osetiya Müsəlmanları Dini İdarəsinin nəzdində fəaliyyət göstərməyə başlamışdı. Ancaq elə həmin il terrorçuların məscidin divarının altına partlayıcı maddə yerləşdirməklə törətdikləri partlayış nəticəsində əsas divarlardan biri dağılmış, digər divarlarda dəliklər yaranmış, qüllədə isə dərin çatlar əmələ gəlmişdi.

Yazının girişində hər bir xalqın genetik yaddaşının olması haqqında əbəs yerə söz açmamışdıq. Ötən əsrin əvvəllərində Vladiqafqaz müsəlmanlarına Murtuza Muxtarovun bəxş etdiyi məscid təxminən bir əsr sonra yenidən daha bir azərbaycanlının - Prezident İlham Əliyevin şəxsi yardımı ilə təmir olundu və bu ilin əvvəlində yenidən yerli müsəlmanların ixtiyarına verildi. Və bu gün Muxtarov məscidi yenidən Terek çayının sahilində öz əzəmətini nümayiş etdirir. Onu Vladiqafqazın "vizit kartı" adlandırırlar, şübhəsiz, belədir, ancaq zənnimcə, o təkcə Vladiqazqazın deyil, həm də Azərbaycan xalqının tolerantlıq çərçivəsini də aşan empatiyasının "vizit kartı", onun "yaxşılıq yoluxucudur", "yaxşılıq toxum kimidir, əkirsən - cücərir" deyimlərinin əyani sübutlarından biridir. Sadəcə, biri…

**Hazırladı: Saleh Arslan**

# AZƏRBAYCANDA NİYƏ MƏZHƏB AYRI-SEÇKİLİYİ YOXDUR?

Azərbaycanda tarixən müxtəlif dinlərin və təriqətlərin mövcudluğuna zəmin yaratmışdır. Bununla belə, ölkə tarixində dini zəmində heç vaxt ciddi qarşıdurma olmamışdır. Əksinə, bu vəziyyət plüralizmin hakim ideyaya çevrilməsi ilə yanaşı, xalqın həyat tərzinə uyğun olaraq sülh və bərabərlik şəraitində dinlərarası münasibətlərin də formalaşmasına təkan vermişdir.

Bu sabitliyin təmin olunmasında ölkədə dini təhlükəsizlik məsələlərinin iqtisadi, hüquqi və ideoloji təşkili çox vacibdir. Elə isə əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda dövləti dünyəviliyi necə təmin edir? Dövlət-din münasibətləri necə tənzimlənir? Ölkədə məzhəb qarşıdurmasının olmaması üçün xarici təsirlərin qarşısı necə alınır?

70 il sovet hökumətinin ateizm siyasətinin hakim olduğu Azərbaycanda din həm ideoloji, həm də praktik baxımdan sıxışdırılmışdır. Bolşevik hakimiyyətinin ilk illərində İslama münasibət o qədər də pis olmamış, əksinə, İslamdan müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Lakin 1920-ci illərin sonlarında bu münasibət kəskin şəkildə dəyişmiş, dinə təzyiqlər başlamış və yüzlərlə məscid bağlanmışdır.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dini dəyərlərin yenidən canlanması baş versə də, digər tərəfdən müxtəlif missionerlik fəaliyyətlərinin ortaya çıxması qanunvericilikdə mövcud olan boşluqlar nəticəsində gələcəkdə təhdidə çevrilə bilərdi. Bu məqsədlə "Dini etiqad azadlığı haqqında" Qanun qəbul olunmuş, xarici missionerlik fəaliyyətinin qarşısının alınması və dini icmaların fəaliyyətinə dövlət nəzarəti prosesi başlanmışdır.

Hazırda Azərbaycanda məscidlərin sayı 2250-yə çatmışdır, eyni zamanda 13 kilsə və 7 sinaqoq fəaliyyət göstərməkdədir.

Ölkədə dindarlığın səviyyəsinin və xarici təsirlərin yaratdığı dindarlığın müəyyən edilməsi ilə bağlı qeyd etməliyik ki, Azərbaycanda dini göstəricilərlə bağlı fərqlər əhali arasında dini kimliyi müəyyənləşdirmək üçün ciddi bir amil deyil. 2013-cü ildə Strateji Araşdırmalar Mərkəzinin apardığı sorğunun nəticələri göstərmişdir ki, respondentlərin 38,5%-i özünü şiə və 14%-i isə sünni hesab edir. Böyük əksəriyyət (45.9%) özünü İslamın heç bir qoluna aid etməmiş və sadəcə müsəlman olduğunu söyləmişdir.

Özlüyündə ehtiyac və inanc sistemi arasında harmoniya, əslində, həqiqi dindarlığın göstəricisidir. Belə olduqda təhdid və ya zorakılığa dair heç bir fərziyyəyə yer qalmır.

Ölkə əhalisinin əsasən müsəlman olmasına baxmayaraq, Azərbaycan dünyəvi dövlətdir və dünyəviliyin Konstitusiya ilə təyin olunduğu 11 ölkədən biridir. Konstitusiyamızın 18-ci maddəsində qeyd olunduğu kimi, din dövlətdən ayrıdır və qanun çərçivəsində bütün dini inanclar bərabərdir.

Eyni zamanda "Dini etiqad azadlığı haqqında" Qanunun 5-ci maddəsində dini icmaların siyasi partiyalarda iştirak etmədikləri və onlara maddi dəstək vermədiyi bildirilir. Din xadimləri dövlət orqanlarına seçildikdə onların rəsmi dini fəaliyyəti peşə fəaliyyəti göstərdikləri müddətə dayandırılır.



foto Reza Deqatinindir

Göründüyü kimi, dövlət dini mövzuları həssaslıqla tənzimləmək, dinə birbaşa və açıq müdaxilənin, həmçinin dinin siyasiləşməsinin qarşısını almaq üçün ciddi mexanizm tətbiq edir. Din xadimlərinin kim tərəfindən və necə müəyyənləşdirilməsi dövlət üçün prioritet məsələlərdən biridir. Dinin dövlətdən ayrı olmasına baxmayaraq, dövlət müxtəlif dini icmalara maddi yardım ayırır. Dini ibadət yerləri dövlət tərəfindən təmir olunur, pulsuz qazla təmin edilir. Ümumiyyətlə, Azərbaycanda dövlət-din münasibətləri digər ölkələrdəki "kilsə ayrılması" və ya "dövlət kilsəsi" anlayışlarından fərqli olaraq, əməkdaşlıq prinsiplərinə uyğundur.

Ölkədə xarici meyillərin ortaya çıxması ilə nəticələnə biləcək dini radikalizmin qarşısı 3 istiqamətdə alınır: ideoloji, iqtisadi və hüquqi mübarizə yolu ilə.

Dini radikalizmə qarşı mübarizədə böyük rol oynayan məsələlərdən biri həmin radikal dini qrupların iqtisadi bazasının dağıdılmasıdır. Çünki iqtisadi baza yeni insanları cəlb etməkdə, silah almaqda və digər amillərdə böyük rol oynayır.

Ən vacib vasitələrdən biri də dini təhsildir. Çünki dini radikalizmin yaranmasında dini bilgisizlikdən doğan cəhalət və xurafat, həmçinin xarici təsirlər böyük rol oynayır. Bu sahədə mövcud sabitliyi qorumaq, gələcək təhdid və təhlükələrin qarşısını almaq üçün həm ölkə daxilində, həm də xaricində tədbirlər, "dəyirmi masa"lar, konfranslar təşkil olunur, həmçinin mütəxəssislərlə, müvafiq təşkilatları ilə birgə fikir mübadiləsi aparılır (xüsusən İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan, eləcə də Orta Asiyanın müvafiq dini təşkilatları ilə).

Xaricdən idxal edilən "dindarlığ"ın azalmasının əsas səbəbi həm də Azərbaycanda mərkəzləşmiş institusional İslamın olmasıdır. "Dini etiqad azadlığı haqqında" Qanunun 9-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikasındakı İslam dini icmaları tarixi İslam dini mərkəzində - Qafqaz Müsəlmanları İdarəsində birləşirlər.

Yüksək dini və mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İlahiyyat İnstitutu yaradılmışdır. Habelə, ölkə başçısı mövcud dini konfessiyalara dəstək vermək, mənəvi dəyərlərin qorunması və inkişafı, habelə buna dövlət dəstəyinin gücləndirilməsi məqsədilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında 10 oktyabr 2017-ci il tarixli Sərəncam imzalamışdır.

Bu gün Qafqazın ən böyük məscidi Heydər məscidində sünnilər və şiələr hər həftə birlikdə (bir həftə sünni, bir həftə şiə imamın pişnamazlığı ilə) ibadət edirlər. Bundan əlavə, Astaranın Pensər kəndində sünni və şiə məscidləri bir-birinə yaxın məsafədə yerləşir, lakin müsəlmanlar bir cümə günü yaxınlıqdakı sünnilərin ibadət etdiyi məsciddə, növbəti cümə isə şiələrin toplaşdığı məsciddə birlikdə namaz qılırlar. Xüsusi vurğulanacaq fakt odur ki, ölkənin orta və aparıcı müsəlman ailələrində kişi və qadının fərqli məzhəblərə (sünni-şiə) mənsub olmasına baxmayaraq, bunun onların münasibətlərinə mənfi təsir göstərmir, əksinə, onlar arasında mehriban münasibətlər vardır. Bütün bu faktlar sübut edir ki, ölkədə məzhəb fonunda ayrı-seçkilik və münaqişə yoxdur.

Ümumiyyətlə, təməl prinsipləri sülh, bərabərlik, sevgi olan İslam dininin zorakılıq, radikalizm və ya ekstremizm anlayışları ilə birlikdə anılması yanlış yanaşmadır. Odur ki, cəmiyyətdə İslamın mahiyyəti düzgün dərk edilərsə, dinin təməl prinsiplərinə düzgün riayət olunarsa və dövlət-din münasibətləri düzgün qurularsa, dini, yaxud məzhəb zəminində ciddi qarşıdurma baş verməz.

**Səfər SƏFƏRLİ**

## UNESKO-NUN QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINA ƏLAVƏLƏR EDİLİB




Bizans dini nəğmələri, Bumba-meu-boy-du-Maranyan mədəni kompleksi və Xarəzm ləzgi rəqsi UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bu haqda qərar UNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin Kolumbiyanın Boqota şəhərində keçirilən 14-cü sessiyasında qəbul olunub.

Bizans dini nəğmələrinin siyahıya daxil edilməsi təklifi Yunanıstan və Kipr tərəfindən irəli sürülüb. Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı təxminən iki min ildir davam edən bu sənət formasının hərtərəfli qorunmağa layiq olduğunu qeyd edib. Qərarda deyilir ki, Xristianlığın erkən dövrlərində yaranan Bizans dini nəğmələri mədəni ənənə olmaqla yanaşı, həm də Bizans imperiyasında inkişaf etmiş musiqi ənənələrini özündə cəmləşdirən mükəmməl musiqi sistemidir.

Braziliyanın şimal-şərqində yerləşən Maranyan ştatında hər il iyun-iyul aylarında keçirilən ənənəvi Bumba-meu-boy-du-Maranyan mədəni festivalı o qədər rəngarəngdir ki, onu mədəni kompleks adlandırmağa tam əsas var. Bu mədəni kompleks Braziliyada UNESKO-nun mədəni irsi statusu almış altıncı sərvətdir.

## QƏDİM XİVƏ TÜRK DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI ELAN OLUNUB



TÜRKSOY Daimi Şurasının Qırğızıstanın Oş şəhərində keçirilən 37-ci iclasında Özbəkistanın qədim Xivə şəhəri 2020-ci il üçün türk dünyasının mədəniyyət paytaxtı elan olunub.

İclasda TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Oş şəhərinin meri Taalaybek Sarıbaşev, təşkilata üzv dövlətlərin mədəniyyət nazirləri və nazir müavinləri iştirak ediblər.

Azərbaycanı bu tədbirdə mədəniyyət nazirinin müavini Rafiq Bayramov təmsil edib.

Özbəkistan Mədəniyyət nazirinin müavini Kamola Akilova deyib ki, Xivə Özbəkistanın incisi sayılan şəhərlərin sırasına daxildir.

# BİLİRSİNİZMİ?

**1 yanvar** – Ümumdünya Sülh Günüdür. Roma Katolik Kilsəsi tərəfindən hər il Müqəddəs Məryəm Ana Günündə qeyd olunur. 1967-ci il dekabrın 8-də Roma Papası VI Pavel tərəfindən elan olunmuşdur. 1969-cu il dekabrın 17-də isə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası Ümumdünya Sülh Gününü rəsmi bayram elan etmişdir. Həmin gün inanclı insanlar .Tanrıya müharibələrə son qoyması və insanlara sülh, əmin-amanlıq bəxş etməsi üçün dualar edirlər. Bu günün ümumi şüarı belədir: "Bağışlayın və siz dinclik tapacaqsınız". Sülh Günü Vatikanda istirahət günüdür; Braziliyada isə Dünya Qardaşlıq Günü kimi qeyd olunur.

**4 yanvar** – Ümumdünya Brayl Əlifbası Günüdür. 17 dekabr 2018-ci ildə BMT Baş Assambleyası tərəfindən təsis edilən və fransız tiflopedaqoq (görmə qüsurlu insanlara dərs keçən müəllim) Lui Braylın ixtirasına həsr edilən bu bayram ilk dəfə 2019-cu il 4 yanvar tarixində qeyd olunmuşdur. O, fiziki məhdudiyyətli insanlara ünsiyyət hüququnu, fikir, düşüncə və əqidələrini ifadə etmə azadlığını həyata keçirmək imkanı vermiş, həmçinin mədəniyyət əsərlərinə və elmi biliklərə çıxışı, inkişafdakı sosial maneələrin aradan qaldırılmasını təmin etmişdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, bu gün Yer üzündə görmə qabiliyyətindən məhrum 35 milyondan çox insan var, görmə xəstəlikləri olan insanların ümumi sayı isə 1 milyardı aşır.

**6 yanvar** – Şərq xristianlarında (Rus, Serb, Qüds və Gürcü pravoslav kilsələri) Milad axşamıdır (Milad ərəfəsi). Həmin gün pravoslavlar üçün 40 günlük pəhrizin sonuncu günü və Milad bayramına hazırlıq dövrüdür. Günəş batandan sonra bütün ailə masa arxasında toplaşır. Süfrəyə İsa peyğəmbərin həvarilərinin sayına uyğun olaraq 12 pəhriz yeməyi qoyulur və bu yeməklərin hər birindən mütləq dadmaq lazımdır. Masada canlı alov - şam yanır. Müqəddəs gecənin başlıca yeməyi "soçivo"dur. "Soçelnik" ("Milad gecəsi") sözü də buradan əmələ gəlmişdir.

Bu şam yeməyi ilə Milad pəhrizi başa çatır.

**7 yanvar** – Pravoslavlıqda İsa Məsihin Doğum Günüdür. Xristian aləminin ən əlamətdar və təntənəli törənlərindən sayılan Milad bayramı ənənəyə görə, İsa Məsihin Beytləhm (Vifleyem) şəhərində dünyaya gəlməsinin şərəfinə qeyd olunur və 100-dən artıq ölkədə rəsmi dövlət bayramı sayılır.

**11 yanvar** - Beynəlxalq Təşəkkür Günüdür. Psixoloqlar hesab edirlər ki, insanların bir-birinə təşəkkür etməsi qarşı tərəfdə məmnunluq hissi oyadır, əsəbləri sakitləşdirir. Minnətdarlıq sözləri ilə insanlar bir-birinə sevinc bəxş edir və müsbət duyğular aşılayırlar.

**14 yanvar** – Köhnə Yeni İldir. Köhnə Yeni ilin qeyd olunması ənənəsi, köhnə üsullu Yulian təqvimi ilə müasir Qriqorian təqvimi arasında yaranan 13 günlük fərqdən qaynaqlanır. Təqvimlərdəki bu ixtilaf ucbatından yeni il iki dəfə - köhnə və yeni üsluba görə qeyd olunur. Köhnə Yeni il nadir tarixi hadisədir və təqvim dəyişikliyi nəticəsində ortaya çıxan əlavə bir bayramdır. Ona görə də yanvarın 13-dən 14-nə keçən gecə istəyən hər kəs bu bayramı "yenidən qeyd etmək" imkanı əldə edir.

**15 yanvar** – "Vikipediya"nın yaranma günüdür. Ümumdünya internet şəbəkəsində sərbəst şəkildə yayılan və universal ensiklopediya sayılan "vikipediya"nın əsası 2001-ci ildə qoyulub. Ensiklopediyanın məqalələri dünyanın bir çox dillərində könüllü müəlliflərin kollektiv işi nəticəsində yaradılır. Məlumat həcmi və tematik əhatə dairəsi baxımından "vikipediya" bəşər tarixində ən irihəcmli ensiklopediya hesab olunur. Bu ad onun tətbiqində istifadə olunan "wiki" texnologiyasından götürülmüşdür. "Wiki" havay dilindən tərcümədə "sürətli" deməkdir.

**17 yanvar** – 1377-ci ildə Vatikan Roma papalarının iqamətgahı seçilmişdir. 1309-1377-ci illərdə Roma Katolik Kilsəsinin mərkəzi Fransanın cənub-şərqində yerləşən Avinyondakı Lateran sarayı idi. "Papaların Avinyon əsirliyi" adlanan həmin dövrdə fransız kralları din xadimlərinə təsir göstərirdilər. Vəziyyət 1377-ci il yanvarın 17-də 13 kardinalın Papa XI Qreqorini təntənəli şəkildə cəmi 44 hektar əraziyə sahib olan Vatikana müşayiət etməsi ilə dəyişdi. "Dövlət daxilində dövlət" olan Vatikan Romadakı Mante-Vatikano təpəsində yerləşir, öz bayrağı, himni və hökuməti, Elmlər Akademiyası, qəzeti və radiostansiyası var. Təbəəliyinə minə yaxın katolik keşiş daxildir.

**20 yanvar** - Ümumxalq Hüzn Günüdür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan, müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıb. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə – yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarda 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb.

**20 yanvar** – Ümumdünya Din Günüdür. Hər il yanvarın üçüncü bazar günü BMT-nin təşəbbüsü ilə qeyd olunan bu günün tarixi 1950-ci ilə gedib çıxır. Belə bir gün Bəhai inancının ABŞ-dakı milli idarəetmə orqanı tərəfindən bütün dünya dinlərinin vahid mahiyyətini elan etmək və dinin ixtilaf mənbəyi olmadığını, əksinə, dünyanın birləşməsində əsas rol oynadığını göstərmək üçün təsis edilmişdi. Ümumdünya Din Günündə bütün dünyada sülhün bərqərar olması və tolerantlığın inkişafı, bütün dinlərin ardıcılları arasında qarşılıqlı anlaşmanın gücləndirilməsinə həsr olunmuş müxtəlif tədbirlər keçirilir.

**22 yanvar** – 1506-cı ildə İsveçrə qvardiyasının əsası qoyulmuşdur. Latınca tam adı "Cohors pedestris Helvetiorum a sacra custodia Pontificis" (Roma Papasının müqəddəs mühafizəsinin piyada İsveçrə koqortası) olan qvardiya Roma papalarının şəxsi mühafizəsini həyata keçirir. Lakin İsveçrə qvardiyası təkcə Vatikanın silahlı qüvvələrindən biri deyil. O, günümüzədək gəlib çatmış dünyanın ən qədim ordusu hesab olunur, həmçinin planetin ən kiçik ordusudur. Qvardiyanın əsas vəzifələri Roma Papasının şəxsi təhlükəsizliyini təmin etməklə yanaşı, onu səfərlərdə müşayiət etmək, Vatikanın girişlərinə nəzarət etmək, həmçinin asayişi qorumaqdan ibarətdir.

**23 yanvar** - Əl Yazısı Günüdür. Dövrümüzdə kompüterlərin, elektron poçtların, elektron bloknotların, SMS-lərin və digər sürətli ünsiyyət vasitələrinin ilbəil populyarlıq qazanması müasir insanı öz fikirlərini əli ilə yazaraq ifadə etməkdən uzaqlaşdırır. Bəlkə də, yaxın gələcəkdə əl ilə yazılmış məktub və ya açıqca arzu olunan hədiyyə olacaq. Bu günün təsis edilməsində əsas məqsəd insanlara əl yazısının unikallığını, hər bir insanın əl yazısının özünəməxsusluğunu, əl ilə yazı yazmağın vacibliyini xatırlatmaqdır. Bu günün qeyd olunması ABŞ-ın yazı ləvazimatları istehsalçılarının assosiasiyası olan WIMA təşkilatı tərəfindən təklif olunub.

**24 yanvar** – Beynəlxalq Təhsil Günüdür. BMT-nin qərarı ilə təsis olunmuş bu gün İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin 26-cı maddəsi ilə təsbit olunmuş təhsil hüququnun daha geniş təbliği məqsədini daşıyır. Təşkilatın hesabatında diqqətə çatdırılır ki, təhsil yoxsulluğun aradan qaldırılması və rifahın təmin edilməsinin rəhnidir. Hazırda dünyada 265 milyon azyaşlı məktəbə getmək imkanından məhrumdur. Onların 20 faizi isə ibtidai sinif yaşlarında uşaqlardır.

**27 yanvar** – Beynəlxalq İnternetsiz Gündür. Bu bayram dünyada hər il yanvar ayının sonuncu bazar günü qeyd olunur. Əsas məqsəd bir günlük də olsa, insanların fikrini kompüter və qlobal şəbəkədən yayındırmaqdır. Böyük Britaniyanın Sosial İxtiralar İnstitutunun təsisçisi olduğu bu bayram 2000-ci illərin əvvəllərindən etibarən keçirilməyə başlayıb. Bir çox ölkədə qeyd olunan bu günün təsisçiləri internet istifadəçilərini ilin heç olmasa bir gününü doğmalarıyla keçirməyə, öz sevimli məşğuliyyətlərinə həsr etməyə, muzeyə və ya sərgiyə getməyə çağırır.

**27 yanvar** – Holokost Qurbanlarını Beynəlxalq Anma Günüdür. 2005-ci ildə nasist alman ölüm düşərgəsi Auşvits-Birkenaunun azad edilməsinin 60-cı ildönümündə BMT Baş Assambleyası tərəfindən təsis edilmişdir. "Auşvits" və ya digər adı ilə "Osvensim" nasist Almaniyasının ən böyük həbs və ölüm düşərgəsi olmuşdur. Bu düşərgədə 1 milyondan çox adam öldürülmüşdü, onların böyük əksəriyyəti yəhudilər idi.

**27 yanvar** – 1967-ci ildə kosmos bütün bəşəriyyətin ümumi irsi elan edilmişdir. 52 il əvvəl bu tarixdə beynəlxalq kosmos hüququnun əsasını təşkil edən "Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın tədqiqi və istismarı üzrə dövlətlərin fəaliyyətinin prinsipləri haqqında" müqavilə imzalanmışdır. Bu və digər müqavilələrə görə, kosmik fəza və səma cisimləri bütün dövlətlər tərəfindən bərabər əsasda, ayrı-seçkilik olmadan tədqiq edilə və istifadə oluna bilər. Heç bir dövlət öz suverenliyini bu və ya digər şəkildə bu ərazilərə şamil edə bilməz.

**31 yanvar** – Hinduizmdə Şat-tila Ekadaşi bayramıdır. Qədim Vedalarda bilik əldə etməyin bir neçə yolundan bəhs olunur: pratyakşa (empirik bilik, təcrübə yolu ilə); anumana (məntiqi sübut, düşüncə yolu ilə); şabda (səs) – etibarlı bilik yolu, itaətkarlıqla həqiqətə yönəlmək yolu. Şabda anlayışı "apauruşeya" (ilahi) və "brahma" (mənəvi) anlayışları ilə bir kontekstdə istifadə olunur. Vedalar həqiqəti eşitmək istəyən hər kəsə dini yazılar (şastralar), müəllim (quru) və digər insanlar (sadhu) vasitəsilə ilahi vəhy olaraq enir. Şat-tila Ekadaşi bayramını qeyd etmək ənənəsi şabda yoluna aid edilir. Həmin gün inanclı hər kəs mənəvi təmizlənmə üçün küncüt toxumunu (tila) altı (şat) yolla istifadə etməlidir: küncüt toxumu qarışdırılmış suda vanna qəbul etməli, bədənə küncüt pastası tətbiq etməli, qurban ayinində küncüt toxumu təklif etməli, küncüt toxumu yeməli, onu sədəqə olaraq paylamalı və ehsan kimi qəbul etməlidir.



## 2020-Cİ İL ÜÇÜN İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTLARI ELAN EDİLİB

Tunisdə İSESKO-ya üzv ölkələrin Mədəniyyət nazirlərinin XI konfransı çərçivəsində "Tunis İslam mədəniyyəti paytaxtı - 2019" ilinin bağlanış tədbiri keçirilib.

Tunisin Mədəniyyət işləri üzrə naziri Məhəmməd Zeyn əl-Abidin, İSESKO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, üzv dövlətlərin mədəniyyət nazirləri və nümayəndə heyətləri bağlanış tədbirində iştirak ediblər.

Tədbir Qurani-Kərimin tilavəti ilə başlayıb.

Tunisli nazir Məhəmməd Zeyn əl-Abidin çıxış edərək "Tunis İslam mədəniyyəti paytaxtı - 2019" ili çərçivəsində görülən işlərdən danışıb. Sonra ərəb dünyasından Qahirə (Misir), Asiya qrupundan Buxara (Özbəkistan) və Afrika qrupundan Bamaku (Mali) şəhərləri 2020-ci il üçün İslam mədəniyyəti paytaxtları elan edilib.

CƏMİYYƏT və DİN
№ 12 (341) / DEKABR 2019-cu il

# İNDONEZİYADA MÜSƏLMAN QADINLAR ÜÇÜN XÜSUSİ MOTOŞLEM HAZIRLANIB

"Cargloss" şirkəti hicablı müsəlman qadınlar üçün nəzərdə tutulan xüsusi motoşlem hazırlayıb. Üz hissəsi açıq olan və daxildən dəyişdirilən motoşlem elə hazırlanıb ki, onu taxarkən başa narahatlıq yaratmır və təzyiq göstərmir.

Yeni məhsulun Cakartadakı sərgidəki təqdimatı zamanı şirkətin nümayəndəsi Maman Haruman bildirib ki, İndoneziyada insanların əksəriyyəti müsəlmanlardır və burada qadınlar həmişə motosiklet sürüblər. Motoşlemin yaradılmasında əsas məqsəd onların rahatlığını təmin etməkdir.

"Hicablı qadınlar belə bir şlemdə qıcıq və baş üzərində təzyiq hiss etməyəcəklər. Bu, onlar üçün əlverişli olacaq, çünki motoşlemi toplanmış saç və örpək üçün yer nəzərə alaraq hazırladıq", - deyə Haruman əlavə edib.



# PLANETİN QURU HİSSƏSİNDƏ ƏN DƏRİN ÇÖKƏKLİK AŞKARLANIB

Amerikalı alimlər Antarktidada buzların altında Yer kürəsinin ən dərin çökəkliyini aşkarlayıblar.

BBC telekompaniyasının xəbərinə görə, çökəklik Şərqi Antarktidada yerləşən Denman buzlağının altında tapılıb. Dünyanın quruda ən dərin nöqtəsi dəniz səviyyəsindən 3,5 kilometr aşağıda yerləşir. Bundan dərin yer isə yalnız okeanlarda mövcuddur.

Alimlərin fikrincə, bu tapıntı gələcəkdə Cənub qütbünün hansı dəyişikliyə məruz qalacağının tədqiqi baxımından önəmlidir.

Buna qədər dünyanın ən çökək nöqtəsi dərinliyi dəniz səviyyəsindən 413 metr aşağı olan Ölü dəniz sahilləri hesab olunurdu.



## Yadigar söz

**Cəlil Məmmədquluzadə**
*(görkəmli Azərbaycan dramaturqu)*

***Təhsil alın ki, cahilləri idarə edəsiniz, təhsil almasanız, əksi olacaq - cahillərin əlinə baxmalı olacaqsınız.***

# DÜNYANIN İLK RELSSİZ TRAMVAY XƏTTİ

Çinin İbin şəhərində dünyada ilk dəfə relssiz və naqilsiz hərəkət edən tramvay xətti istifadəyə verilib.

Çinin CRRC dəmir yolu şirkətinin hazırladığı nəqliyyat vasitəsi özündə qatar, avtobus və tramvayın xüsusiyyətlərini cəmləşdirir. Tramvayda quraşdırılmış sensorlar yolda xüsusi çəkilmiş iki ağ qırıq xətti avtomatik olaraq tanıyır və nəqliyyat vasitəsi həmin xətt üzrə hərəkət edir. Əslində, bu tramvaylar sürücüsüz idarə olunmaq üçün nəzərdə tutulub. Amma hələlik Çində sürücüsüz nəqliyyat vasitələrinin avtomobil yollarında hərəkətinə icazə verilmədiyindən tramvayları sürücülər idarə edir.

Üçvaqonlu tramvay 307, beşvaqonlu tramvay isə 500 sərnişin daşıya bilir. İstehsalçı şirkətin mütəxəssisləri hesab edirlər ki, bu cür nəqliyyat sisteminin ərsəyə gətirilməsi ənənəvi tramvay nəqliyyatı şəbəkəsindən 3 dəfə, metro nəqliyyatından isə 10 dəfə ucuz başa gəlir.



# "FORBES" 2019-CU İLDƏ DÜNYANIN ƏN NÜFUZLU QADINININ ADINI AÇIQLAYIB

Almaniya kansleri Angela Merkel ötən il olduğu kimi, "Forbes" jurnalının versiyası üzrə 2019-cu ildə də dünyanın ən nüfuzlu 100 qadınının reytinqinə başçılıq edir. Beynəlxalq Valyuta Fondunun rəhbəri Kristin Laqard və ABŞ Konqresinin İcmalar palatasının spikeri Nensi Pelosi də jurnalın tərtib etdiyi reytinqdə ilk üçlüyə daxil olub.

Siyahıda doqquz ildir mütəmadi olaraq ilk yeri tutan Angela Merkelin birinci olmasının səbəbi kimi onun Avropada miqrasiya əleyhinə əhval-ruhiyyəyə qarşı mübarizə aparması göstərilir. Nensi Pelosi isə ABŞ Prezidenti Donald Trampın impiçment prosesinin əsas təşəbbüskarlarındandır.

Amerikalı televiziya aparıcısı Opra Uinfri 20-ci, Britaniya kraliçası II Elizabet isə 40-cı yerdə qərarlaşıb. ABŞ Prezidenti Donald Trampın qızı və müşaviri İvanka 42-ci, amerikalı müğənni Rianna 61-ci, tennisçi Serena Uilyams isə 81-ci yeri tutub.

# DİVARA YAPIŞDIRILMIŞ BANAN 120 MİNƏ SATILIB



İtalyan rəssam Mauritsio Katelanın "Art Basel Miami Beach"-də quruluş verdiyi "divara yapışdırılmış banan" əsərləri hərracda 120 min dollara satılıb.

"Komediant" adlı əsər iki nüsxədə təqdim olunub. 120 min dollar məbləğ onların hər biri üçün ayrı-ayrılıqda verilib. Üçüncü bananın qiyməti isə 150 min dollarıdək yüksəlib. "Banan çox məna verir - bu, beynəlxalq ticarətin, ikifikirliliyin və yumorun klassik alətidir", - deyə əsər haqqında bildirilib.

Xatırladaq ki, Katelan daha əvvəl "qızıl unitaz" işini təqdim etmiş, ancaq həmin əsər ekspozisiyadan oğurlanmışdı.

# "İPHONE" SMARTFONLARI ÜÇÜN ƏN POPULYAR TƏTBİQLƏR AÇIQLANIB

Amerikanın "Apple" kompaniyası cari ildə "iPhone" smartfonları sahiblərinin ən çox yüklədikləri mobil proqramların siyahısını dərc edib.

Pulsuz proqramlar reytinqində ilk yeri "YouTube" video servisi, ikinci yeri "Instagram", üçüncü yeri "Snapchat" mesaj mübadiləsi servisi tutur. Siyahıda ilk beşlikdə qısa video çarxların hazırlanması üçün nəzərdə tutulan "TikTok" platforması və "Messenger" mesaj mübadiləsi servisi yer alıb.

"iPhone" üçün ödənişli proqramlar siyahısında isə ilk yeri mobil telefon vasitəsilə çəkilən fotoların redaktəsi üçün hazırlanan "Facetune" servisi tutub. "Mario Kart Tour" avtomobil yarışı simulyatoru ödənişli, "Minecraft" isə pulsuz oyunların içərisində 2019-cu ildə yüklənən ən populyar əlavələr olub.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894